# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ

**BEŞİNCİ ÇAĞIRIŞ**

Azərbaycan Respublikası
Milli Məclisinin nəşri
Bakı – 2016



*Əminəm ki, deputatlar ölkəmizin hərtərəfli inkişafına öz dəyərli töhfəsini verəcəklər, Milli Məclisin işi çox səmərəli olacaq və Azərbaycanın uğurlu inkişafı davam edəcəkdir.*

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

**Məsul redaktor**

***Oqtay ƏSƏDOV***

# YENİ HƏDƏFLƏRƏ DOĞRU

Bütün müasir dövlətlərin konstitusiyalarında parlament ali nümayəndəli orqan və qanunvericilik hakimiyyətinin daşıyıcısı kimi müəyyən edilmişdir. Bu və ya digər ölkədə parlament və onunla sıx bağlı olan parlamentarizm konkret tarixi və siyasi şəraitdən asılı olaraq inkişaf edir. Azərbaycanda bu prosesin başlanması iyirminci yüzilliyin əvvəllərinə təsadüf etmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin tarix səhnəsinə çıxması, müasir dövrün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi xalqımızın dövlətçilik potensialının yeni təzahürü idi. Ulu öndər Heydər Əliyevin söylədiyi kimi, **«Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai-siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi kimi meydana çıxmışdır. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi».**

1918–1920-ci illərdə cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, ilk parlamentimiz Azərbaycanın gələcək həyatı üçün dəyərli işlər görə bilmişdi. Bu işlər sayəsində Şərq aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi təməli yaradılmışdı. Dövlət bayrağı və himni qəbul edilmiş, ana dili dövlət dili elan olunmuşdu. Dünyada birincilər sırasında və Şərq aləmində ilk dəfə olaraq məhz bu parlament qadınlara seçki hüququ vermişdi. Dövlət quruculuğu, iqtisadi, sosial, mədəni və hərbi sahələrdə qəbul edilən qanunvericilik aktları müstəqil dövlətin səmərəli fəaliyyətinə imkan yaratmışdı. O dövrdə

Azərbaycanda mövcud olan bütün siyasi qüvvələrin və müxtəlif millətlərin nümayəndələri parlamentdə təmsil olunmuşdu.

Bütün bunlar Azərbaycan xalqının həyatında parlamentarizm ənənələrinin yeni inkişaf mərhələsinə daxil olduğunu göstərirdi. Məlum olduğu kimi, hələ çar Rusiyasının ilk nümayəndəli orqanı olan Dövlət Dumasına müxtəlif dövrlərdə 13 nəfər azərbaycanlı deputat seçilmiş və onun fəaliyyətində yaxından iştirak etmişdi.

1920-ci ilin aprel ayında bolşevik Rusiyasının silahlı təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra digər hakimiyyət strukturları kimi parlamentin fəaliyyətinə də son qoyulmuşdur. Sovet rejiminin 71 illik hakimiyyəti dövründə Azərbaycanın ali qanunvericilik orqanı məlum səbəblərə görə cüzi səlahiyyətlərə malik olmuşdur. Lakin belə bir məhdud şəraitdə də Azərbaycan xalqı parlamentarizm ənənələrini yaşada bilmişdir.

Sovet İttifaqının tərkibində Azərbaycan müstəqil dövlət olmasa da, bu dövr gələcək dövlət müstəqilliyi üçün əsasların formalaşması baxımından mühüm rol oynamışdır. 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa edəndə artıq Azərbaycanın böyük siyasi, sosial-iqtisadi, intellektual potensialı, zəngin mədəniyyəti var idi.

Təəssüf ki, müstəqilliyin ilk illərində Azərbaycanda səriştəli siyasi rəhbərliyin olmaması ölkəni çıxılmaz vəziyyətə salmışdı. Cəmiyyətdə hökm sürən hərc-mərclik, mənəm-mənəmlik, qanunsuz silahlı dəstələrin özbaşınalığı, hakimiyyət davası, erməni işğalının qarşısını almağa qadir olan vahid cəbhənin formalaşmaması dövlətin varlığını, xalqın gələcək müqəddəratını sual altına almışdı. Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin aqibətini yaşamaq təhlükəsi qarşısında idi.

1993-cü ilin iyun ayında böyük siyasi və dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtması Azərbaycanın sivil dünyanın bir hissəsinə çevrilməsi imkanının gerçəkləşməsinə şərait yaratdı. Ulu öndərin müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycan onu gözləyən təhlükələri aradan qaldıraraq, ardıcıl inkişaf yoluna çıxdı.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyası hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun əsaslarını müəyyən etdi, yeni siyasi və hüquqi sistemin yaradılmasına yol açdı. Azərbaycanda ilk dəfə olaraq real hakimiyyət bölgüsü təmin olundu. Dövlət hakimiyyəti sistemində Milli Məclisin yeri və rolu dəqiq təyin edildi.

Parlamentin formalaşdırılmasının müasir standartlara uyğun gələn mexanizmi yaradıldı. Demokratiya şəraitində Milli Məclisə indiyədək 5 dəfə keçirilmiş azad, ədalətli və şəffaf seçkilər Azərbaycanın demokratik inkişafında mühüm rol oynamışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən dövlət siyasətinin yeni böyük uğuru 2015-ci il noyabrın 1-də reallığa çevrilmişdir. Ölkəmizin siyasi təkamülündə yeni mərhələ açan seçkilər nəticəsində beşinci çağırış Milli Məclisin tərkibi formalaşmışdır.

Ölkəmizdə fəaliyyət göstərən nüfuzlu siyasi qüvvələrin geniş spektri parlamentdə təmsil olunmuşdur. Milli Məclisdəki deputat mandatlarının əksəriyyətini cəmiyyətin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının üzvləri əldə etmişlər.

Parlamentin intellektual potensialı qanunyaratma və qanunvericilik sahəsində qarşıya qoyulan hər bir mürəkkəb vəzifəni yerinə yetirməyə imkan verir. 8 millət vəkili Azərbaycan MEA-nın həqiqi və ya müxbir üzvü, 12 deputat xarici ölkələrin elmlər akademiyalarının üzvüdür. Milli Məclisin 32 üzvü elmlər doktoru, 30 üzvü isə fəlsəfə doktorudur.

... Dördüncü çağırış Milli Məclis artıq tarixə qovuşmuşdur. Bu çağırış ərzində görülən işlərə nəzər salarkən ilk növbədə qeyd edilməlidir ki, özünün fəaliyyəti ilə parlament Azərbaycan dövlətinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi sahəsində öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışmışdır.

Dördüncü çağırış Milli Məclisin 116 iclası keçirilmiş, ümumən 1410 akt, o cümlədən 1267 qanun və 143 qərar qəbul edilmişdir. Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində mühüm işlər görülmüşdür.

80-dən çox ölkəyə 700-ə qədər səfər həyata keçirilmiş, 85-dən çox xarici dövlətin və beynəlxalq təşkilatın 850-dən artıq nümayəndə heyəti Milli Məclisdə olmuşdur.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması üçün sistemli iş aparılmışdır. Bütün ikitərəfli və çoxtərəfli görüşlərdə və danışıqlarda müzakirəyə çıxarılan əsas mövzu bu münaqişənin ədalətli şəkildə həll edilməsi olmuşdur.

Ümumiyyətlə, Milli Məclis beynəlxalq fəaliyyətində dövlətimizin xarici siyasətinin həyata keçirilməsinə parlament diplomatiyası yolu ilə öz töhfəsini verməyə çalışmışdır. Bu sahədə görülən işlərin müsbət nəticələri daha da artmışdır.

İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Macarıstan, Panama və Honduras parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilmişdir. Rumıniya, Bosniya və Herseqovina, İordaniya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 15 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmişlər.

Milli Məclisin vəzifələrindən biri də bəzi qüvvələrin Azərbaycana qarşı qərəzli fəaliyyətinin qarşısını almaqdan ibarət olmuşdur. Parlament bir neçə müraciət, bəyanat və qərar qəbul edərək, ölkəmiz barəsində həyata keçirilən qarayaxma və böhtan kampaniyasına, ikili standartlar siyasətinə qəti etirazını bildirmiş və adekvat tədbirlər görmüşdür.

Artıq 21 ildən çoxdur ki, Azərbaycan Respublikasının peşəkar parlamenti uğurla fəaliyyət göstərir. Milli Məclis hər il iki növbəti yaz və payız sessiyalarına yığılır. Konstitusiyada nəzərdə tutulan hallarda parlamentin növbədənkənar sessiyaları çağırılır. Milli Məclisin iclasları, bir qayda olaraq, ayda iki dəfədən az olmayaraq keçirilir. Parlament öz səlahiyyətlərinə aid məsələlər barəsində Konstitusiya qanunları, qanunlar və qərarlar qəbul edir. Milli Məclisdə 15 komitə, Hesablayıcı və İntizam komissiyaları fəaliyyət göstərir.

Milli Məclisin beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafına xüsusi diqqət yetirilir. Bu məqsədlə parlamentlərarası əməkdaşlığın müxtəlif formalarından istifadə olunur. İndiyədək xarici ölkələrin qanunvericilik orqanları ilə əməkdaşlıq və qarşılıqlı əlaqə haqqında çoxsaylı sazişlər bağlanmışdır. Milli Məclisdə 81 ölkənin parlamentləri ilə əlaqələr üzrə işçi qrupları yaradılmışdır.

Milli Məclis ölkəmizin üzv olduğu beynəlxalq təşkilatların parlament məclislərinin, o cümlədən ATƏT-in Parlament Assambleyasının, Avropa Şurası Parlament Assambleyasının, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, MDB Parlamentlərarası Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının, Türkdilli Ölkələrin Parlament Assambleyasının, İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin, Avronest Parlament Assambleyasının və digər nüfuzlu təşkilatların üzvüdür, bir neçə parlament təşkilatı, o cümlədən Avropa Parlamenti, NATO-nun Parlament Assambleyası, Baltik Parlament Assambleyası ilə yaxından əməkdaşlıq edir. Milli Məclisin nümayəndə heyətləri beynəlxalq təşkilatların toplantılarında müntəzəm iştirak edir, dövlətimizin müxtəlif məsələlərə dair mövqeyini beynəlxalq aləmə çatdırmaq üçün bu vasitədən də səmərəli istifadə edirlər.

Milli Məclis nəzarət funksiyasını da uğurla yerinə yetirir. Hər il Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın), Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın və İnsan alverinə qarşı mübarizə üzrə Milli koordinatorun hesabat və məruzələri dinlənilir. Azərbaycan parlamenti dövlət büdcəsini qəbul edir, onun icrasına nəzarət edir, qanunların monitorinqini həyata keçirir.

Parlament xalqın mənafelərinin həqiqi təmsilçisi olmalı, millət vəkili isə onu seçmiş insanların qayğıları ilə yaşamalıdır. Milli Məclisin deputatları müntəzəm surətdə seçiciləri ilə görüşür, onların təşəbbüsü ilə Milli Məclisdə problemlər qaldırır, insanları narahat edən məsələlərin həlli üçün səylərini əsirgəmirlər.

Gündəlik fəaliyyətində Milli Məclis mərkəzi və yerli icra və məhkəmə hakimiyyəti orqanları, ölkənin aparıcı elm, təhsil və yaradıcılıq mərkəzləri ilə sıx qarşılıqlı əlaqə saxlayır. Hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq ölkəmizin strateji inkişaf xəttinin uğurla həyata keçməsini təmin edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Konstitusiyada təsbit edilmiş qanunvericilik təşəbbüsü hüququna əsaslanaraq müasir standartlara uyğun qanun layihələrinin hazırlanmasını və parlamentə təqdim olunmasını təmin edir. Bircə faktı qeyd edim ki, parlamentin qəbul etdiyi layihələrin 80 faizindən çoxu cənab Prezidentin təşəbbüsü ilə müzakirəyə çıxarılır. Azərbaycan parlamentində qanunyaratma və qanunvericilik fəaliyyətinin daha da gücləndirilməsi və təkmilləşdirilməsi üçün həyata keçirilən tədbirlər dövlət başçısı tərəfindən fəal surətdə dəstəklənir.

Parlament mahiyyət etibarı ilə demokratiyanın bəhrəsidir, digər tərəfdən isə demokratiyanın inkişafı və onun dönməzliyinin təmin edilməsi üçün zəruri şərtdir. İnamla söyləmək olar ki, özünün bütün fəaliyyəti ilə Milli Məclis Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən demokratik quruculuq işlərinin uğuruna dəyərli töhfələr verir. Milli Məclis öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirir, Azərbaycanın qabaqcıl dünya dövlətləri sırasına çıxarılması üçün görülən işlərə var gücü ilə kömək göstərir. Müasir Azərbaycan parlamenti xalqın suveren iradəsini ifadə edən, qanunları qəbul etmək yolu ilə mühüm ictimai münasibətləri tənzimləyən ali nümayəndəli orqandır.

**Oqtay ƏSƏDOV,**
*Azərbaycan Respublikası*
*Milli Məclisinin Sədri*



# MƏLUMATLAR



**Vasif Yusif oğlu**
**TALIBOV**

*1 saylı Şərur-Sədərək seçki dairəsi*

1960-cı il yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Aralıq kəndində anadan olmuşdur. Naxçıvan Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsini və Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir.

Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1981-ci ildən Şərur rayonunun Dəmirçi kənd orta məktəbində müəllim, 1982-ci ildən Naxçıvan trikotaj paltarları fabrikində kadrlar üzrə təlimatçı, xüsusi şöbənin rəisi işləmişdir. 1991-ci ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin baş köməkçisi, 1994-cü ildən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini vəzifələrində çalışmışdır. 1995-ci ildən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür. YAP Naxçıvan Muxtar Respublikası təşkilatının sədridir.

Birinci, ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Azərbaycan-İran parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Evlidir, 3 övladı var.

**İsa Əkbər oğlu**
**HƏBİBBƏYLİ**



*2 saylı Şərur seçki dairəsi*

1949-cu il oktyabrın 16-da Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Danzik kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutu Naxçıvan filialının Dil-ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Filologiya elmləri doktoru, professordur. «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. Əməkdar elm xadimidir. Azərbaycan Milli Elmlər Akademiyasının və Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Atatürk Kültür, Dil və Tarix Qurumunun müxbir üzvüdür. Ankara Universitetinin fəxri dostu adına layiq görülmüşdür. Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvüdür. Müxtəlif dillərdə çap olunmuş 68 monoqrafiyanın, broşürün, dərsliyin, metodik vəsaitin və tərtib kitabının, 500-dən çox elmi məqalənin müəllifidir. Rus dilini bilir.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1971-ci ildən Şərur rayonunda kənd orta məktəbində müəllim işləmişdir. 1975-ci ildən Naxçıvan Dövlət Universitetində müəllim, dosent, elmi işlər üzrə prorektor vəzifələrində çalışmışdır. 1996–2013-cü illərdə Naxçıvan Dövlət Universitetinin rektoru olmuşdur. 2013-cü ildən Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun direktorudur.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Birinci və ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, Milli Məclis yanında Toponimiya komissiyasının sədridir. Belçika, Çin, Estoniya, İran, Qazaxıstan, Qətər, Türkmənistan, Yaponiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

3 övladı var.



**Səttar Suliddin oğlu**
**MÖHBALIYEV**

*3 saylı Babək-Kəngərli-Naxçıvan seçki dairəsi*

1955-ci il oktyabrın 28-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Qıvraq kəndində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Mühasibat uçotu fakültəsini bitirmişdir. İqtisad elmləri doktoru, professordur. «Şöhrət» ordeni və «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin fəxri medalına layiq görülmüşdür. Rusiya Sosial Elmlər Akademiyasının həqiqi üzvüdür. Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyasının və Panavropa Regional Şurasının vitse-prezidentidir. Həmkarlar İttifaqları Ümumi Konfederasiyasının İcraiyyə Komitəsinin üzvüdür. 5 kitabın müəllifidir. Rus dilini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1973-cü ildən Bakı şəhərində dəmir-beton məmulatı zavodunda qəlibçi işləmişdir. 1976–1980-ci illərdə Bakı İstehsalat Tikiş Birliyində fəhlə, əmtəəşünas, mühəndis-iqtisadçı, baş mühasibin müavini, 1980–1993-cü illərdə Avtonəqliyyat və Şose Yolları İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin müfəttiş-təlimatçısı, şöbə müdiri, sədri vəzifələrində çalışmışdır. 1993-cü ildən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədridir.

Bitərəfdir.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin, İntizam komissiyasının üzvüdür. Azərbaycan-Polşa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Moldova, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



# Eldar Rza oğlu İBRAHİMOV

*4 saylı Naxçıvan şəhər seçki dairəsi*

1945-ci il martın 12-də Naxçıvan Muxtar Respublikası Babək rayonunun Cəhri kəndində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. İqtisad elmləri doktoru, professordur. 5 elmi əsərin və 23 elmi məqalənin müəllifidir. «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. Rus və ingilis dillərini bilir.

Azərbaycan–Özbəkistan Dostluq Cəmiyyətinin sədridir.

1961-ci ildən Naxçıvanda tikinti idarəsində, toxuculuq kombinatında, avtotəmir zavodunda fəhlə, çilingər, mexanik işləmişdir. 1966-cı ildən Texnika Birliyi sistemində böyük və baş mühəndis, 1980-ci ildən Naxçıvan Vilayət Partiya Komitəsində təlimatçı olmuşdur. 1982–1991-ci illərdə Naxçıvan Dövlət Texnika Birliyinin sədri, Dövlət Aqrar-Sənaye Komitəsi sədrinin müavini, 1988-ci ildən Naxçıvan MSSR Nazirlər Soveti sədrinin birinci müavini–Dövlət Aqrar-Sənaye Komitəsinin sədri və Vilayət Partiya Komitəsinin büro üzvü, 1991-ci ildən Standartlar və Metrologiya Mərkəzinin direktoru, 1993-cü ildən Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini – Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsinin sədri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

On birinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Sovetinin, on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, birinci, ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 1995–2015-ci illərdə ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyəti rəhbərinin  müavini olmuşdur.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədridir. Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Avstriya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Çexiya, Çin, İran, İtaliya, Moldova, Pakistan, Serbiya, Sloveniya, Türkiyə, Türkmənistan, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



**Siyavuş Dünyamalı oğlu**
**NOVRUZOV**

*5 saylı Şahbuz-Babək seçki dairəsi*

1969-cu il fevralın 17-də Naxçıvan Muxtar Respublikası Babək rayonunun Cəhri kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Hüquq fakültəsini və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirmişdir. Hüquq üzrə fəlsəfə doktorudur. Qarabağ müharibəsi veteranıdır. Rus və ingilis dillərini bilir.

1990-cı ildən «Əlincə» Xeyriyyə Cəmiyyətinin şöbə rəisi, məsul katibi işləmişdir. 1994–1999-cu illərdə Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının işlər müdiri, Təşkilat şöbəsinin müdiri vəzifələrində çalışmış, 1995–2005-ci illərdə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri olmuşdur.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvü, partiyanın icra katibinin müavinidir.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədridir. Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Amerika Birləşmiş Ştatları, Bolqarıstan, İtaliya, Latviya, Mərakeş parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.

**Ülviyyə Tapdıq qızı**
**HƏMZƏYEVA**



*6 saylı Culfa-Babək*
*seçki dairəsi*

1982-ci il aprelin 30-da Naxçıvan Muxtar Respublikası Babək rayonunun Şəkərabad kəndində anadan olmuşdur. Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Pedaqogika nəzəriyyəsi və tarixi üzrə magistrdir. Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının əməkdar rəssamıdır. Azərbaycan Rəssamlar İttifaqının üzvü, UNESCO «Yeni era» Dünya Rəssamlıq Akademiyasının həqiqi üzvüdür. Dünyanın bir çox ölkələrində fərdi və qarışıq sərgiləri keçirilmişdir. Rus və ingilis dillərini bilir.

2004–2014-cü illərdə Naxçıvan Dövlət Universitetinin Təsviri sənət kafedrasında baş müəllim vəzifəsində çalışmışdır. Hazırda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədridir.

Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Mədəniyyət komitəsinin üzvüdür. Estoniya, İran, İtaliya, Qazaxıstan, Meksika, Polşa, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 1 övladı var.



**Qüdrət Müzəffər oğlu**
**HƏSƏNQULİYEV**

*7 saylı Ordubad-Culfa*
*seçki dairəsi*

1965-ci il yanvarın 29-da Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Əbrəqunus kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Rus və ingilis dillərini bilir.

Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1992-ci ildə Nəsimi Rayon Prokurorluğunun müstəntiqi, 1993-cü ildə Azərbaycan Respublikası Dövlət katibinin köməkçisi işləmişdir. 1996-cı ildən Bakı Asiya Universitetinin baş müəllimi, 2000–2003-cü illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının katibi vəzifələrində çalışmışdır.

Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədridir.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Hesablayıcı komissiyasının üzvüdür. Azərbaycan-Malta parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belçika, Xorvatiya, İtaliya, Moldova, Peru parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.

## **Azay Əjdər oğlu QULİYEV**



*8 saylı Binəqədi birinci seçki dairəsi*

1971-ci il iyunun 23-də Ermənistan Respublikası Sisian rayonunun Vağudi kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Türkiyə və Orta Şərq Dövlət İdarəçilik İnstitutunda «Beynəlxalq Dövlət İdarəçilik Proqramı» üzrə təhsil almışdır. Siyasi elmlər üzrə fəlsəfə doktorudur. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədridir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının, Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə dövlət komissiyasının, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının üzvüdür. Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1991–1996-cı illərdə Azərbaycan Dövlət Baş Arxiv İdarəsinin birinci dərəcəli arxivçisi, 1997–1999-cu illərdə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu rektorunun köməkçisi vəzifələrində çalışmışdır.

1993–1998-ci illərdə «Elitar» Gənclər Klubunun və Azərbaycan Gənclərinin Sülh və Təhlükəsizlik İttifaqı İctimai Birliyinin sədri, 1998–1999-cu illərdə Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri, 1999–2008-ci illərdə Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti olmuşdur. 2013–2016-cı illərdə ATƏT-in Parlament Assambleyasının Büro üzvü, Siyasi məsələlər və təhlükəsizlik komitəsi sədrinin müavini vəzifəsində çalışmışdır.

Bitərəfdir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvüdür. Azərbaycan-Rumıniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Cənubi Afrika Respublikası, Çexiya, Estoniya, İsveçrə, Özbəkistan, Serbiya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü, Parlament Assambleyasının vitse-prezidentidir.

Evlidir, 3 övladı var.



**Kamaləddin Nəsrəddin oğlu**
**QAFAROV**

*9 saylı Binəqədi ikinci seçki dairəsi*

1976-cı il sentyabrın 7-də Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsini və Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və kredit fakültəsini bitirmişdir. Rus dilini bilir.

2005–2014-cü illərdə «Azəri Med» MMC-də operator, maliyyə müdiri vəzifələrində çalışmışdır. 2014-cü ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzi baş direktorunun müavinidir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Səhiyyə komitəsinin üzvüdür. Avstraliya və Yeni Zelandiya, Braziliya, Gürcüstan, Latviya, Lüksemburq, Səudiyyə Ərəbistanı, Türkiyə, Vyetnam parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 4 övladı var.

**Madər Ələsgər oğlu**
**MUSAYEV**



*10 saylı Binəqədi üçüncü seçki dairəsi*

1947-ci il noyabrın 26-da Bakı şəhərində anadan olmuşdur. Moskva Kooperativ İnstitutu Bakı filialının Sənaye əmtəəşünaslığı və ticarətin təşkili fakültəsini bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Rus dilini bilir.

1964-cü ildən Bakı şəhərində satıcı şagirdi, kiçik satıcı, baş satıcı, 1971-ci ildən mağaza müdiri, 1976-cı ildən universamda baş satıcı işləmişdir. 1986–1995-ci illərdə «Bahar» ticarət mərkəzinin müdiri vəzifəsində çalışmışdır.

Bitərəfdir.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, birinci, ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvüdür. Gürcüstan, İran, Rusiya, Səudiyyə Ərəbistanı, Tacikistan, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



**Aydın Nəsir oğlu**
**HÜSEYNOV**

*11 saylı Qaradağ*
*seçki dairəsi*

1962-ci il fevralın 10-da Tovuz rayonunun Çatax kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsini və Azərbycan Dövlət İqtisad Universitetinin Maliyyə fakültəsini bitirmişdir. Rus dilini bilir.

1985–1988-ci illərdə Azərbaycan EA Neft-Kimya Prosesləri İnstitutunda baş laborant, 1988–1991-ci illərdə Azərbaycan LKGİ Qaradağ rayon komitəsində komsomol katibi, təlimatçı, təşkilat şöbəsinin müdiri olmuşdur. 1991-ci ildən Azərbaycan Əmanət Bankı Qaradağ rayon şöbəsi müdirinin müavini, 1994-cü ildən Bakı Səhmdar-Kommersiya Əmanət Bankının Kreditləşdirmə və kommersiya şöbəsi rəisinin müavini, 1996-cı ildən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Baş Dövlət Gəlirləri və Vergiyə Nəzarət İdarəsinin Vergi siyasəti və beynəlxalq vergi münasibətləri şöbəsinin baş iqtisadçısı, 1997-ci ildən Bakı şəhəri Qaradağ rayonu Maliyyə şöbəsinin müdiri, 1999-cu ildən Sumqayıt şəhər Maliyyə İdarəsinin rəisi, 2000-ci ildən Bakı şəhəri Səbail rayonu Maliyyə İdarəsinin rəisi, 2009-cu ildən Azərbaycan Respublikası Maliyyə Nazirliyi Dövlət Xəzinədarlığı Agentliyinin 7 saylı Xəzinədarlıq İdarəsinin rəisi, 2013–2015-ci illərdə 9 saylı Xəzinədarlıq İdarəsinin rəisi vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. YAP Qaradağ rayon təşkilatının sədridir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Aqrar siyasət komitəsinin üzvüdür. Belarus, Çin, İsveçrə, Kanada, Qətər, Latviya, Malta, Özbəkistan, Rusiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.

## Mixail Yuryeviç ZABELİN



*12 saylı Qaradağ-Binəqədi-Yasamal seçki dairəsi*

1946-cı il martın 19-da Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun Hidromeliorasiya fakültəsini, Bakı Ali Partiya Məktəbini və Ümumittifaq Qiyabi Hüquq İnstitutunun Sovet quruculuğu fakültəsini bitirmişdir. «Şöhrət» ordeni və «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilmişdir. Rusiya Federasiyasının «Dostluq» ordeninə, Rus pravoslav kilsəsinin Sergiy Radonejski ordeninə, Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının və Moskva şəhəri Hökumətinin fəxri fərmanlarına layiq görülmüşdür.

Azərbaycanda Rus İcmasının sədridir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Himayəçilik Şurasının üzvüdür.

1966-cı ildən Bakıda layihə institutunda texnik işləmişdir. 1969-cu ildən Oktyabr Rayon Komsomol Komitəsinin katibi, 1974-cü ildən Lenin Rayon Partiya Komitəsinin, Bakı Şəhər Partiya Komitəsinin təlimatçısı olmuşdur. 1978-ci ildən Azərbaycan KP MK-da təlimatçı, birinci katibin referenti, müfəttiş, 1989-cu ildən Nizami Rayon İcraiyyə Komitəsinin sədri, 1991-ci ildən Azərbaycan Respublikası Ali Soveti Katibliyinin baş mütəxəssisi, Daimi komissiyalar şöbəsinin katibi vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, birinci, ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Mədəniyyət komitəsinin, Hesablayıcı komissiyasının üzvüdür. Azərbaycan-Uruqvay parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, İrlandiya, Litva, Mavritaniya, Polşa, Rusiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin və Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

1 övladı var.



**Rauf Asif oğlu**
**ƏLİYEV**

*13 saylı Xəzər-Pirallahı seçki dairəsi*

1956-cı il mayın 27-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun Neft və qaz quyularının qazılması fakültəsini bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Milli Olimpiya Komitəsi və Azərbaycan Gimnastika Federasiyası icraiyyə komitələrinin üzvüdür.

1978-ci ildən Bakı Qaz İstehsalat İdarəsində böyük mühəndis işləmişdir. 1983-cü ildən Azərbaycan Dövlət Peşə Təhsili Komitəsi sədrinin köməkçisi, Xalq Təhsili Nazirliyinin idarə rəisi olmuşdur. 1991–1992-ci illərdə «İnbak» firması baş direktorunun müavini, 1994-cü ildən Azərbaycan Respublikası gənclər və idman nazirinin köməkçisi, nazirliyin işlər müdiri, 2000–2005-ci illərdə «Neftçi» idman-sağlamlıq mərkəzinin sədri vəzifələrində çalışmışdır. 2004-cü ildən AFFA-nın birinci vitse-prezidentidir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Əmək və sosial siyasət komitəsi sədrinin müavini, Gənclər və idman komitəsinin üzvüdür. Azərbaycan-Bolqarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Çin, Fransa, Kolumbiya, Koreya, Qırğızıstan, Tailand parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında və Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin üzvüdür.

Evlidir, 2 övladı var.

# Mehriban Arif qızı ƏLİYEVA



*14 saylı Xəzər seçki dairəsi*

1964-cü il avqustun 26-da Bakı şəhərində anadan olmuşdur. İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. Fəlsəfə üzrə fəlsəfə doktorudur. Rus və ingilis dillərini bilir.

Geniş ictimai və xeyriyyəçilik fəaliyyətinə, təhsil, səhiyyə, mədəniyyət, idman və s. sahələrin inkişafına, xalqlararası əlaqələrin möhkəmləndirilməsinə və sivilizasiyalararası dialoqun genişləndirilməsinə verdiyi töhfələrə görə bir çox fəxri adlara layiq görülmüş, mükafatlar almışdır.

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəxri professoru, Bolqarıstan Respublikasının Müqəddəs Kirill və Mefodiy adına Veliko Tırnovo Universitetinin fəxri doktorudur.

«Heydər Əliyev» mükafatı və «Heydər Əliyev» ordeni, Rusiya Federasiyasının «Yüzilliyin mesenatları» Beynəlxalq Xeyriyyə Fondunun «Yaqut xaç» ordeni, Polşa Respublikasının «Xidmətlərə görə Böyük Komandor Xaçı» ordeni, Fransa Respublikasının «Şərəf Legionu» ordeninin zabit dərəcəsi, Pakistan İslam Respublikasının «Hilal-e Pakistan» ali ordeni, Serbiya Respublikasının «Sreten» ordeni, Macarıstanın «Xidmətlərə görə Komandor Xaçı» ordeni, Avropa Olimpiya Komitələrinin ali ordeni, BMT-nin Ümumdünya Əqli Mülkiyyət Təşkilatının qızıl medalı, UNESCO-nun «Qızıl Motsart» medalı ilə təltif edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin fəxri medalına, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının, Beynəlxalq Olimpiya Akademiyasının və bir sıra digər beynəlxalq təşkilatların mükafatlarına layiq görülmüşdür.

UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiridir. Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1988–1992-ci illərdə Moskva şəhərində Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda çalışmışdır. 1995-ci ildən Azərbaycan Mədəniyyət Fondunun prezidentidir. 1996-cı ildə «Azərbaycan-İrs» jurnalını təsis etmişdir. 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidentidir. 2004-cü ildən Azərbaycan Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, Heydər Əliyev Fondunun prezidentidir.

Yeni Azərbaycan Partiyası sədrinin müavini, partiyanın Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Rusiya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



**Ülvi Zahid oğlu**
**QULİYEV**

*15 saylı Yasamal birinci seçki dairəsi*

1966-cı il sentyabrın 17-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun Əczaçılıq fakültəsini və Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Əməkdar bədən tərbiyəsi və idman xadimidir. Əməkdar məşqçi, əməkdar idman ustasıdır. Karate idman növü üzrə Avropa və dünya çempionudur. Azərbaycan Karate-do Federasiyaları Assosiasiyasının prezidentidir. Dünya Karate Federasiyası (WSKF) texniki komitəsinin üzvüdür. Rus və ingilis dillərini bilir.

1988-ci ildən aptekdə provizor, baş provizor, aptek müdiri işləmişdir. 2002-ci ildən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin şöbə rəisi, 2005-ci ildə «Gömrükçü» İdman Sağlamlıq Mərkəzi baş direktorunun müavini vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Gənclər və idman komitəsi sədrinin müavinidir. Azərbaycan-Meksika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Belçika, Böyük Britaniya, Çexiya, Koreya, Peru, Rusiya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.

**Aytən İnqlab qızı**
**MUSTAFAZADƏ**



*16 saylı Yasamal ikinci seçki dairəsi*

1968-ci il mayın 23-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmişdir. Hüquq elmləri doktorudur. «Azərbaycan Respublikası Məhkəmə Təbabəti, Tibbi Hüquq və Etika Assosiasiyası» ictimai birliyinin təsisçisidir. Gürcüstan Milli Akademiyasının fəal üzvüdür. Onlarca elmi məqalənin müəllifidir. Fars, rus və ingilis dillərini bilir.

1991-ci ildən Bakı şəhərinin 193 saylı orta məktəbində müəllim işləmişdir. 1993-cü ildən Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun elmi işçisi, şöbə müdiri, prorektoru, 2004-cü ildən Azərbaycan MEA-nın İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun baş elmi işçisi, şöbə müdiri vəzifələrində çalışmışdır. 2009-cu ildən İnsan Hüquqları üzrə Elmi Tədqiqat İnstitutunun direktorudur.

Bitərəfdir.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvüdür. Estoniya, Finlandiya, Gürcüstan, İsrail, Niderland parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

2 övladı var.



**Elşad Eldar oğlu**
**HƏSƏNOV**

*17 saylı Yasamal üçüncü seçki dairəsi*

1976-cı il sentyabrın 27-də Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Hüquq üzrə fəlsəfə doktorudur. Hüquq sahəsində bir neçə elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1997-ci ildən «Foton» məhdud məsuliyyətli müəssisəsinin direktoru, 2006-cı ildən «West Industries AZ» şirkətinin hüquqşünası, 2012–2015-ci illərdə «Kaspian Konsaltinq» auditor şirkətinin hüquqşünası vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Milli Məclisin Gənclər və idman komitəsinin, Elm və təhsil komitəsinin üzvüdür. Albaniya, Almaniya Federativ Respublikası, Avstriya, Çexiya, Əfqanıstan, İsveçrə, İtaliya, Litva, Rusiya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin, Avropa İttifaqı–Azərbaycan parlament əməkdaşlığı komitəsinin və Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 2 övladı var.

**Rasim Nəsrəddin oğlu**
**MUSABƏYOV**



*18 saylı Nərimanov-Nizami seçki dairəsi*

1951-ci il yanvarın 1-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun Avtomatika və telemexanika fakültəsini bitirmişdir. Fəlsəfə üzrə fəlsəfə doktoru, politologiya üzrə dosentdir. 300-dən çox kitabın, kitabçanın və elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1976–1982-ci illərdə ÜİLKGİ MK aparatının məsul işçisi olmuş, sonralar Moskvada Gənclər İnstitutunda baş müəllim, elmi tədqiqat laboratoriyasının müdiri işləmişdir. 1989-cu ildən Bakı Ali Partiya Məktəbində sosiologiya laboratoriyasının müdiri, 1990-cı ildən Azərbaycan KP Bakı Şəhər Komitəsinin İdeologiya şöbəsinin müdiri, 1991-ci ildən Azərbaycan Respublikası Prezidenti Aparatında millətlərarası münasibətlər üzrə müşavir, 1992-ci ildən Azərbaycan Respublikası Ali Soveti Sədrinin birinci müavininin müşaviri, 1993-cü ildən Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun dosenti vəzifələrində çalışmışdır. 2000-ci ildən müstəqil politoloq kimi fəaliyyət göstərir.

Bitərəfdir.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Azərbaycan-Cənubi Afrika Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Əfqanıstan, Gürcüstan, İsrail, Makedoniya, Rusiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında və Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin üzvüdür.

Evlidir, 1 övladı var.



**Hikmət Baba oğlu**
**MƏMMƏDOV**

*19 saylı Nərimanov birinci seçki dairəsi*

1966-cı il aprelin 17-də Ermənistan Respublikasının Amasiya rayonunun Göllü kəndində anadan olmuşdur. Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun Politologiya fakültəsini və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirmişdir. Siyasi elmlər doktoru, professordur. Əməkdar jurnalistdir. Mahmud Kaşqari beynəlxalq mükafatı ilə təltif edilmişdir. Rus dilini bilir.

1986-cı ildən Bakı soyuducular zavodunda tornaçı, qaynaqçı, konstruktor işləmiş, 1993–1995-ci illərdə «Çinar» qəzetində müxbir, baş müxbir, 1995–1999-cu illərdə Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında təlimatçı, baş təlimatçı vəzifələrində çalışmış, 1997–2008-ci illərdə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Analitik informasiya şöbəsinin rəisi, Mətbuat xidməti və analitik informasiya mərkəzinin rəhbəri, Ümumi şöbə müdirinin müavini-mətbuat xidməti və analitik informasiya sektorunun müdiri olmuşdur. 2003-cü ildən Bakı Dövlət Universiteti Politologiya və sosiologiya kafedrasının baş müəllimi, dosenti, professoru, 2008-ci ildən «Yeni Azərbaycan» qəzetinin baş redaktorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, İnsan hüquqları komitəsinin üzvüdür. Bosniya və Herseqovina, Böyük Britaniya, Çin, Gürcüstan, İndoneziya, İspaniya, Koreya, Qırğızıstan, Malta, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.

**Adil Abış oğlu**
**ƏLİYEV**



*20 saylı Nərimanov ikinci seçki dairəsi*

1969-cu il sentyabrın 25-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Maxta kəndində anadan olmuşdur. Leninqrad Ali Hərbi Dənizçilik Akademiyasının Şturman fakültəsini, Azərbaycan Polis Akademiyasını və BDU-nun magistraturasını bitirmişdir. Hüquq üzrə fəlsəfə doktorudur. «İgidliyə görə» medalı ilə təltif edilmişdir. Azərbaycan Kikboksinq Federasiyasının prezidentidir. Rus dilini bilir.

1992-ci ildən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hərbi Dəniz Qüvvələrində bölmə rəisi, 1994-cü ildən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyatında Polis İdarəsində növbətçi inspektor, əməliyyat müvəkkili, baş əməliyyat müvəkkili, 1998-ci ildən Səbail Rayon Polis İdarəsinin 39-cu polis bölməsində baş əməliyyat müvəkkili, rəis müavini işləmişdir. 1999–2002-ci illərdə Su Nəqliyyatında Polis İdarəsində Xətt polis şöbəsinin rəisi, bölmə inspektoru olmuşdur. 2002-ci ildən Bakı Şəhər Binəqədi Rayon Polis İdarəsinin bölmə rəisi, Yasamal Rayon Polis İdarəsinin şöbə rəisi, 2004–2005-ci illərdə Nərimanov Rayon Polis İdarəsi 16-cı polis bölməsinin rəisi vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Gənclər və idman komitəsinin üzvüdür. Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Avstraliya və Yeni Zelandiya, Belarus, Çexiya, Çin, Litva, Niderland, Səudiyyə Ərəbistanı, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.



**Məlahət İbrahim qızı**
**İBRAHİMQIZI**

*21 saylı Nəsimi birinci seçki dairəsi*

1958-ci il aprelin 25-də Ermənistan Respublikası Basarkeçər rayonunun Kiçik Məzrə kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun Pediatriya fakültəsini və Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Harvard Universitetinin Kennedi Proqramının İctimai səhiyyə, Qadın və hakimiyyət kurslarında təhsil almışdır. Tarix üzrə fəlsəfə doktorudur. Qadın hüquqlarına dair 5 kitabın müəllifidir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının üzvüdür.

1982-ci ildən Bakıda uşaq poliklinikasının həkimi, 1992–1998-ci illərdə baş həkimi olmuş, 1998–2000-ci illərdə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi sədrinin birinci müavini vəzifəsində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. YAP Nəsimi rayon təşkilatının sədridir.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Səhiyyə komitəsinin üzvüdür. Azərbaycan-Serbiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Amerika Birləşmiş Ştatları, Avstriya, Qırğızıstan, Liviya, Türkiyə, Yaponiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

NATO-nun Parlament Assambleyasında və Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin üzvüdür.

Evlidir, 2 övladı var.

**Asim Nazim oğlu**
**MOLLAZADƏ**



*22 saylı Nəsimi ikinci seçki dairəsi*

1953-cü il iyunun 6-da Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirmişdir. Tibb elmləri doktorudur. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Bir sıra dərsliklərin və elmi məqalələrin müəllifidir. Bir neçə ixtirası vardır. İngilis və rus dillərini bilir.

1978-ci ildən Bakı şəhərində xəstəxanada həkim işləmişdir. 1984–1987-ci illərdə Həkimləri Təkmilləşdirmə İnstitutunun baş elmi işçisi olmuşdur. 1992-ci ildən Azərbaycan Respublikası Prezidentinin Analitik-informasiya xidmətinin rəhbəri, 1993-cü ildə Azərbaycan Respublikası Prezidenti Aparatının Xarici əlaqələr şöbəsinin müdiri və Prezidentin xüsusi nümayəndəsi vəzifələrində çalışmışdır.

Azərbaycan Demokratik İslahatlar Partiyasının sədridir.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Elm və təhsil komitəsinin, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Azərbaycan-Braziliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Amerika Birləşmiş Ştatları, Argentina, Avstraliya və Yeni Zelandiya, Böyük Britaniya, İsrail, İsveçrə, Kolumbiya, Makedoniya, Polşa, Serbiya, Türkiyə, Uruqvay parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin və Avropa İttifaqı–Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvüdür.

Evlidir, 1 övladı var.



# Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ

*23 saylı Nəsimi-Səbail seçki dairəsi*

1940-cı il iyunun 25-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin İqtisadiyyat fakültəsini bitirmişdir. İqtisad elmləri doktoru, professordur. Azərbaycan Milli Elmlər Akademiyasının akademikidir. Beynəlxalq Menecment Akademiyasının, Beynəlxalq Şərq Neft Akademiyasının akademikidir. «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmiş, Belarus Respublikasının Fransisk Skorina medalına layiq görülmüşdür. 550 elmi əsərin, çoxsaylı monoqrafiyaların müəllifidir. Rus dilini bilir.

Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidentidir. İqtisad elmləri üzrə birləşmiş ixtisaslaşdırılmış müdafiə şurasının sədri, Bakı Dövlət Universitetinin professorudur.

1961-ci ildən Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, elmi katib, şöbə müdiri, 1976-cı ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun elmi işlər üzrə prorektoru işləmişdir. 1983–1991-ci illərdə Azərbaycan KP MK-nın İqtisadiyyat şöbəsinin müdiri, 1985-ci ildən Azərbaycan Respublikası Ali Sovetinin İqtisadiyyat məsələləri daimi komissiyasının sədri, Ali Sovet sədrinin birinci müavini, Dövlət Plan Komitəsinin sədri, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifələrində çalışmışdır. 1992–1994-cü illərdə Avropa Birliyi Komissiyasının Azərbaycana texniki yardımı üzrə Azərbaycan Respublikasının milli koordinatoru olmuşdur. 1999-cu ildən nəşr edilən «İqtisadiyyat» qəzetinin təsisçisidir.

Bitərəfdir.

Onuncu, on birinci və on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Mədəniyyət komitəsinin üzvüdür. Azərbaycan-Belarus parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Çin, Portuqaliya, Sloveniya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

3 övladı var.

**Rövnəq İbrahim oğlu**
**ABDULLAYEV**



*24 saylı Nizami birinci seçki dairəsi*

1965-ci il aprelin 3-də Naxçıvan şəhərində anadan olmuşdur. Moskva İnşaat Mühəndisləri İnstitutunun Sənaye və mülki tikinti fakültəsini bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin fəxri medalına layiq görülmüşdür. Rus dilini bilir.

1989-cu ildən «Neft Daşları» NQÇİ-də, «28 May» NQÇİ-də, «Xəzərdənizneftqaztikinti» Trestinin tikinti-quraşdırma idarəsində mühəndis, şöbə rəisi, baş mühəndis işləmişdir. 1997-ci ildən «Xəzərdənizneftqaztikinti» Trestinin müdiri, 2003-cü ildən Heydər Əliyev adına Bakı neft emalı zavodunun direktoru vəzifələrində çalışmışdır. 2005-ci ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidentidir.

2004–2008-ci illərdə «Neftçi» Peşəkar Futbol Klubunun prezidenti olmuşdur. 2008-ci ildən Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının, 2015-ci ildən Azərbaycan Cüdo Federasiyasının prezidentidir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvüdür. Azərbaycan-Norveç parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Böyük Britaniya, Gürcüstan, Rusiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Sədaqət Süleyman qızı**
**VƏLİYEVA**

*25 saylı Nizami ikinci seçki dairəsi*

1954-cü il dekabrın 23-də Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirmişdir. Rus dilini bilir.

1976-cı ildən Həkimləri Təkmilləşdirmə İnstitutunun Döş qəfəsi cərrahiyyəsi klinikasında tibb bacısı, 1978-ci ildən 4 saylı klinik xəstəxanada həkim-interna işləmişdir. 1980-ci ildən 6 saylı vərəm xəstəxanasının həkimi, 1984-cü ildən baş həkimi, 1995-ci ildən Suraxanı Rayon Səhiyyə Şöbəsinin müdiri, 1996-cı ildən 1 saylı vərəm dispanserinin həkimi, 1997-ci ildən 6 saylı vərəm əleyhinə dispanserin baş həkimi, 2002-ci ildən Sabunçu Rayon Səhiyyə Şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 2006-cı ildən 4 saylı vərəm əleyhinə dispanserin baş həkimidir.

Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədridir.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Səhiyyə komitəsinin, Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvü, Hesablayıcı komissiyasının katibidir. Avstriya, Böyük Britaniya, Çexiya, Hindistan, Koreya, Qırğızıstan, Liviya, Slovakiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Türkdilli Ölkələrin Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin, Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 1 övladı var.

**Fazil Qəzənfər oğlu**
**MUSTAFA**



*26 saylı Sabunçu birinci seçki dairəsi*

1965-ci il oktyabrın 19-da Naxçıvan şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Fəlsəfə üzrə fəlsəfə doktorudur. 1 monoqrafiyanın, 17 kitabın və onlarca elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1991-ci ildən Azərbaycan Xalq Cəbhəsi sədrinin müşaviri, 1992–1993-cü illərdə Azərbaycan Respublikası Prezidenti Aparatının Dövlət-hüquq şöbəsinin müdiri, 1998–2001-ci illərdə Azərbaycan Xalq Cəbhəsi Partiyası sədrinin müavini vəzifələrində çalışmışdır.

Böyük Quruluş Partiyasının sədridir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İnsan hüquqları komitəsinin, İctimai birliklər və dini qurumlar komitəsinin, İntizam komissiyasının üzvüdür. Azərbaycan-Makedoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Belçika, Braziliya, İordaniya, İran, Kolumbiya, Latviya, Malayziya, Malta, Rumıniya, Rusiya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Dilarə Məmmədağa qızı**
**CƏBRAYILOVA**

*27 saylı Sabunçu ikinci seçki dairəsi*

1971-ci il iyunun 3-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun Rus dili və ədəbiyyatı fakültəsini bitirmişdir. Rus dilini bilir.

1996-cı ildən Bakı şəhəri Sabunçu rayonunun Nardaran kəndində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 2012–2015-ci illərdə həmin kənddəki 295 saylı məktəbin direktoru vəzifəsində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvüdür. Braziliya, İtaliya, Kanada, Qazaxıstan, Qətər, Litva, Polşa, Türkiyə, Türkmənistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 2 övladı var.

**Eldar Allahyar oğlu**
**QULİYEV**



*28 saylı Sabunçu üçüncü seçki dairəsi*

1951-ci il iyulun 26-da Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Ticarətin iqtisadiyyatı fakültəsini bitirmişdir. İqtisad elmləri doktoru, professordur. Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının, Avropa Təbiət Elmləri Akademiyasının, İtaliya Beynəlxalq İqtisadi və Sosial Elmlər Akademiyasının həqiqi üzvüdür. Roma şəhərinin fəxri alimidir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının «Qızıl ulduz» medalı və Atatürk beynəlxalq mükafatı, BMT-nin «Avropa taclı xidmət» və «Avropa xidməti» ordenləri, Avropa Təbiət Elmləri Akademiyasının «Leybnis» ordeni, «Senator ulduzu» ordeni ilə təltif edilmişdir. Rus və ingilis dillərini bilir.

1973-cü ildən Ümumittifaq Əməyin Elmi Təşkili İnstitutunun Azərbaycan filialında iqtisadçı, Bakı Şəhər Sənaye Malları Ticarəti İdarəsində əmtəəşünas, 1975-ci ildən həmin idarədə təsərrüfat hesablı univermağın direktoru, 1983-cü ildən ticarət idarəsinin direktor müavini, direktoru, 1987-ci ildən «Azərittifaq»ın Bakı Şəhər İstehlak Cəmiyyəti İdarə Heyətinin sədri, 1990-cı ildən «Azərittifaq»ın İdarə Heyəti sədrinin müavini vəzifələrində çalışmışdır. 1993-cü ildə «Azərittifaq»ın İdarə Heyətinin sədri seçilmişdir və indiyədək ictimai əsaslar ilə bu vəzifədə işləyir. 2011-ci ildən Azərbaycan Kooperasiya Universitetinin rektorudur.

Bitərəfdir.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət komitəsi sədrinin müavinidir. Azərbaycan-Niderland parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Çexiya, Xorvatiya, Polşa, Sloveniya, Yaponiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin rəhbəridir.

Evlidir, 2 övladı var.



**Şəmsəddin Hümmət oğlu**
**HACIYEV**

*29 saylı Səbail seçki dairəsi*

1950-ci il noyabrın 8-də Ucar rayonunun Lək kəndində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun İqtisadiyyat fakültəsini bitirmişdir. İqtisad elmləri doktoru, professordur. «Şöhrət» ordeni ilə təltif edilmişdir. 150-dən çox elmi əsərin müəllifidir. Rus və ingilis dillərini bilir.

1970-ci ildən Azərbaycan Dövlət Plan Komitəsinin Elmi Tədqiqat İqtisadiyyat İnstitutunda iqtisadçı, kiçik elmi işçi, baş elmi işçi, bölmə müdiri işləmişdir. 1981-ci ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda baş müəllim, dosent, həmkarlar ittifaqı komitəsinin sədri, 1989-cu ildən kafedra müdiri vəzifələrində çalışmışdır. 2004–2014-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru olmuşdur.

Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının sədridir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2005-ci il dekabrın 2-dən 2015-ci il noyabrın 24-dək Milli Məclisin Elm və təhsil komitəsinə rəhbərlik etmişdir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Elm və təhsil komitəsinin üzvüdür. Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, İran, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 1 övladı var.

**Sevinc Həbib qızı**
**FƏTƏLİYEVA**



*30 saylı Suraxanı birinci seçki dairəsi*

1979-cu il avqustun 17-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dillər Universitetinin Tərcümə fakültəsini bitirmişdir. Filologiya üzrə fəlsəfə doktoru, dosentdir. Rus və ingilis dillərini bilir.

2003-cü ildən Bakı Slavyan Universitetində fəaliyyətə başlamışdır. 2006-cı ildən həmin universitetin İngilis filologiyası kafedrasının müdiri vəzifəsində çalışır.

Yeni Azərbaycan Partiyası Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Qadınlar Şurası sədrinin müavinidir.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin üzvüdür. Azərbaycan-Danimarka parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Amerika Birləşmiş Ştatları, Çili, İsveç, Qətər, Misir, Peru, Yaponiya, Yunanıstan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür. AŞPA-nın Sosial məsələlər, sağlamlıq və davamlı inkişaf komitəsinin Sosial Xartiya alt komitəsi sədrinin müavinidir. AŞPA-nın uşaqlar üzrə baş məruzəçisi, «Uşaqlara qarşı zorakılıqla mübarizə» proqramının Azərbaycan üzrə əlaqələndiricisidir.

Evlidir, 2 övladı var.



# Fərəc İbrahim oğlu QULİYEV

*31 saylı Suraxanı ikinci seçki dairəsi*

1962-ci il dekabrın 22-də Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Üstüpü kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirmişdir. İctimai Peşələr Fakültəsində hüquq təhsili almışdır. 5 kitab və elmi-nəzəri məqalələr müəllifidir. AXC-nin təsisçilərindəndir. Anqlosaks-Türk Assambleyasının təsisçisi və prezidentidir. «Parlament Üzvlərinin Korrupsiyaya Qarşı Qlobal Təşkilatı» (GOPAC) beynəlxalq qurumunun üzvüdür. «Yeni Dirçəliş» qəzetinin, «Təbriz» əlavəsinin, «Davam.az» saytının təsisçisidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Sambo üzrə idman ustasıdır. Azərbaycan Şito-ryu Karate-do Federasiyasının fəxri prezidentidir. Rus və alman dillərini bilir.

1984-cü ildən Sumqayıt boru-prokat zavodunda feldşer işləmişdir. 1986-cı ildən Naxçıvan Respublika Xəstəxanasının həkimi, 1987-ci ildən Ordubad rayon Çənnəb kənd xəstəxanasının həkimi, baş həkimi vəzifələrində çalışmışdır. Azərbaycan Xalq Cəbhəsi Ordubad rayon şöbəsinin sədri, 1993-cü ildə isə Azərbaycan Xalq Cəbhəsi İcraiyyə Komitəsinin sədri, AXC sədrinin birinci müavini olmuşdur. 2002-ci ildə Hollandiyada Dünya Azərbaycanlıları Konqresi İdarə Heyətinin üzvü və sədr müavini seçilmiş, 2003-cü ildən həmin qurumun Azərbaycan nümayəndəliyinin rəhbəri olmuşdur.

Milli Dirçəliş Hərəkatı Partiyasının sədridir.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvüdür. Belçika, Gürcüstan, Qazaxıstan, Litva, Moldova, Rumıniya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.

## Ağacan Qulam oğlu ABIYEV



*32 saylı Suraxanı üçüncü seçki dairəsi*

1937-ci il noyabrın 24-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun Bədən tərbiyəsi fakültəsini və Azərbaycan Politexnik İnstitutunun Metallurgiya istehsalının avtomatlaşdırılması və kompleks mexanikləşdirilməsi fakültəsini bitirmişdir. Texnika üzrə fəlsəfə doktoru, professordur. Əməkdar elm xadimidir. Dünya Boks Federasiyası icraiyyə komitəsinin üzvü, Avropa Boks Federasiyasının vitse-prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibi, Azərbaycan Boks Federasiyasının vitse-prezidentidir. İdman ustası və beynəlxalq dərəcəli hakimdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. 1 monoqrafiyanın və 100-dən çox elmi məqalənin müəllifidir. 4 ixtirası vardır. Rus və ingilis dillərini bilir.

1957-ci ildən «Neftçi» İdman Cəmiyyətində məşqçi işləmişdir. 1966-cı ildən Azərbaycan Politexnik İnstitutunun Avtomatika və hesablama texnikası kafedrasının müəllimi, 1971-ci ildən Lipetsk Politexnik İnstitutunun dosenti, kafedra müdiri, 1983-cü ildən Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Elektrotexnika və elektronika kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1987–2015-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin, Elm və təhsil komitəsinin üzvü, İntizam komissiyasının sədridir. Azərbaycan-Kuba parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Avstriya, Bolqarıstan, Mavritaniya, Polşa, Rusiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



# Hüseynbala Fazil oğlu MİRƏLƏMOV

*33 saylı Xətai birinci seçki dairəsi*

1945-ci il iyunun 25-də Lerik rayonunun Nuravud kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsini bitirmişdir. Texnika elmləri doktoru, professordur. Əməkdar mühəndisdir. Azərbaycan Mühəndislər Akademiyasının müxbir üzvüdür. Avropa və Rusiya Mədən akademiyalarının üzvüdür. Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvüdür. Çoxsaylı elmi və bədii əsərlərin müəllifidir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. «Qızıl kəlmə», «Qızıl qələm», «Qızıl dərviş», «Qızıl buta», «Abdulla Şaiq» və «Rəsul Rza», Rusiyanın Yuri Dolqoruki, N.Kosıgin mükafatları, akademik Həsən Əliyev adına beynəlxalq mükafat, Mahmud Kaşqari beynəlxalq mükafatı laureatıdır. Fransa Sənayeçilər Assosiasiyasının «Napoleon» qızıl medalına, «Beynəlxalq Qızıl Ulduz və Türk dünyasına xidmət medalı»na layiq görülmüş, MDB ölkələri üzrə 8 dəfə «İlin direktoru» seçilmişdir. Rus dilini bilir.

1965-ci ildən «Azərbaycan pioneri» qəzeti redaksiyasının baş ədəbi işçisi olmuşdur. 1971-ci ildən Azərbaycan Qazlaşdırma Komitəsinin 4 saylı Qaz tikinti-quraşdırma idarəsində iş icraçısı, baş mühəndis və rəis, 1986-cı ildən «Azərqaztəmirtikinti» Trestinin rəisi, 1988-ci ildən Maye Qaz İstehsalat Birliyinin rəisi, 1989-cu ildən Azərbaycan Dövlət Yanacaq Komitəsi sədrinin birinci müavini vəzifələrində çalışmışdır. 1992-ci ildən biznes fəaliyyəti ilə məşğul olmuşdur. 1996-cı ildən «Bakqaz» İstehsalat İdarəsi rəisinin müavini, 1998–2007-ci illərdə Azərbaycan Qaz Emalı Açıq Səhmdar Cəmiyyətinin sədri işləmişdir. Hazırda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Neftin, qazın nəqli və saxlanması kafedrasının müdiridir.

Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədridir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət komitəsinin üzvüdür. Azərbaycan-Küveyt parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Çin, İran, Özbəkistan, Rusiya, Serbiya, Türkiyə, Türkmənistan, Yaponiya, Yunanıstan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 4 övladı var.

**Fuad Rauf oğlu**
**MURADOV**



*34 saylı Xətai ikinci seçki dairəsi*

1979-cu il iyulun 22-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Neft Akademiyasının Ətraf mühit və neft sənayesi fakültəsini bitirmişdir. Kimya üzrə fəlsəfə doktorudur. 10 elmi əsərin və monoqrafiyanın müəllifidir. İngilis, fransız və rus dillərini bilir.

2001-ci ildən «ACEP» Azərbaycan Ekoloji Layihələr Mərkəzinin meneceri, 2002-ci ildən Avropa Gənclər Forumunun Maliyyə-nəzarət komissiyasının sədri, 2004-cü ildən Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri vəzifələrində çalışmışdır. 2012-ci ildən «Böyük İpək Yolu» Beynəlxalq Gənclər İttifaqının sədridir.

Bitərəfdir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Gənclər və idman komitəsinin sədri, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvüdür. Azərbaycan-Kanada parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Amerika Birləşmiş Ştatları, Belçika, Böyük Britaniya, Fransa, Hindistan, Küveyt, Litva, Meksika parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin və Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 3 övladı var.



**Araz Məmməd Mübariz oğlu ƏLİZADƏ**

*35 saylı Xətai üçüncü seçki dairəsi*

1951-ci il noyabrın 3-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmişdir. Rus, fars, dari, tacik və Ukrayna dillərini bilir.

1975–1976-cı illərdə SSRİ Qaz Sənayesi Nazirliyində tərcüməçi işləmiş, 1977–1978-ci illərdə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda komsomol komitəsinin təlimatçısı, A.Zeynallı adına Bakı Musiqi Məktəbində komsomol komitəsinin katibi olmuşdur. 1979-cu ildən Ukrayna Elmlər Akademiyasının Tarix İnstitutunda kiçik elmi işçi, 1982-ci ildən Kiyev Dövlət Pedaqoji Xarici Dillər İnstitutunda müəllim, tərcüməçi, 1984-cü ildən Buryatiyada çıxan «Прибайкалец» qəzetinin xüsusi müxbiri, redaktoru vəzifələrində çalışmışdır. 1988-ci ildə Bakıda mədəniyyət və istirahət parkının təlimatçısı, direktor müavini, Bakı Asudə Vaxt Mərkəzinin direktoru, 1988–1990-cı illərdə MDS Sharg Barter Traiding Group QMBX-nin SSRİ üzrə tam səlahiyyətli nümayəndəsi, 1991-ci ildə Azərbaycan Respublikası Müdafiə Şurasının üzvü, 2013-cü ildə keçirilən Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd olmuşdur.

Azərbaycan Sosial-Demokrat Partiyasının  sədridir.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Almaniya Federativ Respublikası, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, Braziliya, Çexiya, Gürcüstan, Xorvatiya, Qazaxıstan, Latviya, Litva, Macarıstan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.

**Səməd İsmayıl oğlu**
**SEYİDOV**



*36 saylı Xətai dördüncü*
*seçki dairəsi*

1964-cü il yanvarın 18-də Bakı şəhərində anadan olmuşdur. Leninqrad Dövlət Universitetinin Psixologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Psixologiya elmləri doktoru, professordur. 100-dən çox elmi məqalənin, bir sıra dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların müəllifidir. İngilis, fransız və rus dillərini bilir.

Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1986-cı ildə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda əmək fəaliyyətinə başlayaraq, burada müxtəlif vəzifələrdə çalışmışdır. 2000–2015-ci illərdə Azərbaycan Dövlət Dillər Universitetinin rektoru olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədridir. Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Avstraliya və Yeni Zelandiya, Qazaxıstan, Səudiyyə Ərəbistanı parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir.

Evlidir, 2 övladı var.



**Pərvin Orxan qızı**
**KƏRİMZADƏ**

*37 saylı Nizami birinci (Gəncə)*
*seçki dairəsi*

1976-cı il fevralın 3-də Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdir. Tarix üzrə fəlsəfə doktoru, dosentdir. İngilis və rus dillərini bilir.

1997–2009-cu illərdə Gəncə Dövlət Universitetində Ümumi tarix kafedrasının müəllimi, baş müəllimi, dosenti, 2009–2011-ci illərdə Tarix fakültəsi dekanının tədris işləri üzrə müavini vəzifələrində çalışmış, 2011–2013-cü illərdə Ümumi tarix kafedrasının müdiri olmuşdur. 2013-cü ildən həmin universitetin elm və innovasiyalar üzrə prorektorudur.

Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatı sədrinin müavinidir.

Milli Məclisin Elm və təhsil komitəsinin üzvüdür. Avstraliya və Yeni Zelandiya, Gürcüstan, İsveçrə, Qazaxıstan, Qırğızıstan, Litva, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 2 övladı var.

## Naqif Ələşrəf oğlu HƏMZƏYEV



*38 saylı Nizami ikinci (Gəncə) seçki dairəsi*

1983-cü il mayın 24-də Ermənistan Respublikası Vardenis rayonunun Nərimanlı kəndində anadan olmuşdur. Bakı Dövlət Universiteti Tarix fakültəsinin bakalavr və magistr pillələrini bitirmişdir. İngilis və rus dillərini bilir.

2009-cu ildən Azərbaycan Dövlət Aqrar Universitetində müəllim, Beynəlxalq əlaqələr şöbəsinin mütəxəssisi, İnformasiya və Kommunikasiya Texnologiyaları Mərkəzinin direktoru, 2012-ci ildən İnformasiya Texnologiyaları və Beynəlxalq Əlaqələr Mərkəzi İnnovasiya şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 2013–2014-cü illərdə Gəncə Şəhər Kəpəz Rayon İcra Hakimiyyəti başçısının müavini, 2015-ci ildə Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini olmuşdur.

Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının sədridir.

Milli Məclisin Gənclər və idman komitəsinin üzvüdür. Avstraliya və Yeni Zelandiya, Çin, Gürcüstan, Qazaxıstan, Latviya, Mavritaniya, Portuqaliya, Sloveniya, Türkiyə, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Xanlar Nuru oğlu**
**FƏTİYEV**

*39 saylı Kəpəz birinci (Gəncə)*
*seçki dairəsi*

1972-ci il yanvarın 15-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Memarlıq və İnşaat Universitetinin Sənaye və mülki tikinti fakültəsini bitirmişdir. Rus dilini bilir.

1988-ci ildən «Aztransqaz» İstehsalat Birliyinin 2 saylı mexanikləşdirilmiş kolonunda fəhlə, usta işləmişdir. 1992-ci ildən «Betonçu» kooperativinin mühəndisi, sədri, 1994-cü ildən «Elnur» kiçik müəssisəsinin sədri, 1997-ci ildən «Avestas» firmasının baş direktoru, 2003-cü ildən «Aznur» Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru, 2004–2011-ci illərdə Gəncə Avtomobil Zavodunun direktoru vəzifələrində çalışmışdır. Hazırda Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi Müşahidə Şurasının sədridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsi sədrinin müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, İntizam komissiyasının üzvüdür. Azərbaycan-Avstraliya və Yeni Zelandiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Belarus, Bolqarıstan, Çexiya, Çin, İraq, Koreya, Makedoniya, Moldova, Sloveniya, Tailand parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin, Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 2 övladı var.



**Musa İsa oğlu**
**QULİYEV**
**(Musa Urud)**

*40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsi*

1961-ci il noyabrın 25-də Ermənistan Respublikası Sisian rayonunun Urud kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirmişdir. Tibb üzrə fəlsəfə doktorudur. Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin üzvüdür. «Nizami», «Aydın», «Araz» və Yusif Məmmədəliyev ədəbi mükafatları laureatıdır. Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin gümüş medalı və BMT-nin I dərəcəli Hippokrat ordeni ilə təltif edilmişdir. 15 kitabın və 150-dən çox məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1984-cü ildən Gəncə şəhərində narkoloji dispanserdə həkim-narkoloq, 1990-cı ildən Bakıda poliklinikada həkim-nevropatoloq, 1993-cü ildən Yasamal rayon Həkim-əmək ekspert komissiyasında ekspert-nevropatoloq, 1994–2000-ci illərdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində şöbə müdiri, idarə rəisi vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini, Əmək və sosial siyasət komitəsinin, Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Azərbaycan-Qırğızıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Braziliya, Çexiya, Estoniya, Qazaxıstan, Litva, Özbəkistan, Pakistan, Rumıniya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.



**Mirzəcan Mirzəmməd oğlu**
**XƏLİLOV**

*41 saylı Sumqayıt birinci seçki dairəsi*

1954-cü il aprelin 19-da Sabirabad rayonunun Kovlar kəndində anadan olmuşdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Çay qurğularının və su-elektrik stansiyalarının hidrotexniki tikintisi fakültəsini bitirmişdir. Əməkdar mühəndisdir. Rus dilini bilir.

1970-ci ildən Bakı şin zavodunda 5-ci dərəcəli çilingər, 1976-cı ildən fəhlə işləmişdir. 1977–1978-ci illərdə Muğan meliorasiya-sutikinti trestinin briqadiri, 1978–1997-ci illərdə «Azərkəndsutəchizattikinti» İstehsalat Birliyinin 20 nömrəli səyyar mexanikləşdirilmiş dəstəsinin briqadiri, ustası, iş icraçısısı, baş mühəndisi, rəisi vəzifələrində çalışmışdır. 1997–2003-cü illərdə Sabirabad rayonunda «Sutəchizattikinti» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri, 2003–2015-ci illərdə «Azərsutəchizattikinti» ASC İdarə Heyətinin sədri olmuşdur. 2015-ci ildən «Azərsutəchizattikinti» ASC Müşahidə Şurasının sədridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvüdür. Albaniya, Avstriya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Bosniya və Herseqovina, Cənubi Afrika Respublikası, Çexiya, İsveçrə, Norveç parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 6 övladı var.

**Tahir Famil oğlu**
**MİRKİŞİLİ**



*42 saylı Sumqayıt ikinci seçki dairəsi*

1977-ci il iyunun 7-də Qubadlı rayonunun Həmzəli kəndində anadan olmuşdur. Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq iqtisadi münasibətlər fakültəsini bitirmişdir. İqtisadiyyat üzrə fəlsəfə doktorudur. «Tərəqqi» medalı ilə təltif edilmişdir. İngilis, alman və rus dillərini bilir.

2000–2011-ci illərdə «Ultra Computers» MMC-də direktor, məsləhətçi, 2011–2015-ci illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyində baş məsləhətçi, iqtisadiyyat və sənaye nazirinin müşaviri vəzifələrində çalışmışdır. 2000-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimidir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Almaniya Federativ Respublikası, Avstriya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, İndoneziya, İspaniya, İsveçrə, Kanada, Litva, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Muxtar Bahadur oğlu**
**BABAYEV**

*43 saylı Sumqayıt üçüncü seçki dairəsi*

1967-ci il oktyabrın 16-da Bakı şəhərində anadan olmuşdur. Moskva Dövlət Universitetinin Politologiya fakültəsini, Azərbaycan Dövlət İqtisad Universitetinin Xarici iqtisadi əlaqələrin planlaşdırılması və təşkili fakültəsini və Ümumrusiya Xarici Ticarət Akademiyasının İqtisadiyyat fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1991-ci ildən Azərbaycan Respublikasının Dövlət İqtisadiyyat və Planlaşdırma Komitəsində aparıcı iqtisadçı, 1992-ci ildən Azərbaycan Respublikasının Xarici İqtisadi Əlaqələr Nazirliyində şöbə rəisinin müavini, şöbə rəisi işləmişdir. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici İqtisadi Əlaqələr İdarəsində şöbə rəisi, idarə rəisinin müavini, 2006-cı ildən Marketinq və İqtisadi Əməliyyatlar İdarəsinin rəis müavini, rəisi, 2007-ci ildən Şirkətin vitse-prezidenti vəzifələrində çalışmışdır. 2010-cu ildə «Azərikimya» İstehsalat Birliyinin baş direktoru olmuşdur. Hazırda «Azərikimya» İstehsalat Birliyi Müşahidə Şurasının sədridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvüdür. Azərbaycan-Yaponiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belarus, Çili, Çin, Əfqanıstan, İsveç, Litva, Liviya, Niderland, Özbəkistan, Peru, Rusiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Türkdilli Ölkələrin Parlament Assambleyasında və Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin, Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 2 övladı var.

**Hacı Hacı Baba oğlu**
**SALAYEV**



*44 saylı Sumqayıt-Xızı*
*seçki dairəsi*

1968-ci il iyunun 28-də Sumqayıt şəhərində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Plan-iqtisad fakültəsini və Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. «MDB Parlamentlərarası Assambleyasının 20 illiyi» medalı və MDB Parlamentlərarası Assambleyasının «Parlament əməkdaşlığını möhkəmləndirməyə görə» medalı ilə təltif edilmişdir.

1985-ci ildən Azərbaycan Respublikası Dövlət İdman Komitəsinin İdman İstehsalat Birliyində fəhlə kimi fəaliyyətə başlamış, sonralar əmtəəşünas, iqtisadçı işləmişdir. 1991–1996-cı illərdə Hədiyyələr və Bədii Məmulat üzrə Xalq Yaradıcılığı İstehsalat Birliyinin «Şəbəkə» filialının direktoru olmuşdur. 1996–2002-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Xüsusi İdarədə (Milli Təhlükəsizlik Nazirliyi) əməliyyat müvəkkili vəzifəsindən şöbə rəisi vəzifəsinədək xidmət yolu keçmişdir. Ehtiyatda olan polkovnik rütbəli zabitdir. 2002-ci ildən «Trust-SS» MMC-nin baş direktoru, 2005-ci ildən ARDNŞ prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri və Təhlükəsizlik Departamentinin rəisi vəzifələrində çalışmışdır. 2006–2010-cu illərdə «Trust-SS» MMC-nin İdarə Heyətinin sədri olmuşdur. 2010-cu ilin fevral ayından «Az Kommunal Servis» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədridir.

Bitərəfdir.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvüdür. Azərbaycan-Estoniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Albaniya, Almaniya Federativ Respublikası, İtaliya, Peru, Rusiya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Oqtay Sabir oğlu**
**ƏSƏDOV**

*45 saylı Abşeron seçki dairəsi*

2005-ci il dekabrın 2-dən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir.

1955-ci il yanvarın 3-də Ermənistan Respublikası Qafan rayonunun Şəhərcik kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun Maşınqayırma texnologiyası fakültəsini bitirmişdir. «Şərəf» ordeni ilə təltif edilmişdir. Rusiya Federasiyasının «Dostluq» ordeninə layiq görülmüşdür. Azərbaycan Respublikası Milli Məclisinin fəxri medalı ilə təltif edilmişdir. Azərbaycan Tennis Federasiyasının prezidentidir. Beynəlxalq Su Assosiasiyasının üzvüdür. Rus və ingilis dillərini bilir.

1976-cı ildən Bakı Məişət Kondisionerləri zavodunda usta, baş usta və sahə rəisi işləmişdir. 1979-cu ildən Azərbaycan Baş Quraşdırma və Xüsusi İnşaat İşləri Baş İdarəsinin böyük mühəndisi, 1981-ci ildən Azərbaycan Baş Quraşdırma və Xüsusi Tikinti İşləri Nazirliyinin «Azərsantexquraşdırma» Trestinin böyük texnoloqu, idarə rəisi, 1988–1996-cı illərdə «Azərsantexquraşdırma» Birliyinin rəisi olmuşdur. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

MDB-nin Parlamentlərarası Assambleyasında və Türkdilli Ölkələrin Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin rəhbəridir.

Evlidir, 2 övladı var.

**Rafael Kamil oğlu**
**CƏBRAYILOV**



*46 saylı Şirvan seçki dairəsi*

1958-ci il dekabrın 28-də Neftçala rayonunun Qırmızıkənd kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Hüquq üzrə fəlsəfə doktorudur. 10 kitabın və 100-dən çox elmi-publisistik məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1985-ci ildən Sabirabad Rayon Prokurorluğunun müstəntiqi, baş müstəntiqi, 1992-ci ildən Azərbaycan Respublikası Prokurorluğu Ümumi nəzarət idarəsinin prokuroru, rəis müavini, Sosial və iqtisadi sahələrdə qanunların icrasına nəzarət idarəsinin, Mülki sahədə qanunların icrasına nəzarət idarəsinin prokuroru vəzifələrində çalışmışdır. 2001–2002-ci illərdə Dəvəçi rayon prokurorunun, 2005-ci ildə Gədəbəy rayon prokurorunun köməkçisi olmuşdur.

Bitərəfdir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvüdür. Azərbaycan-İrlandiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Rusiya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Aydın Böyükkişi oğlu**
**MİRZƏZADƏ**

*47 saylı Mingəçevir seçki dairəsi*

1957-ci il iyulun 2-də Mingəçevir şəhərində anadan olmuşdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun İnşaat fakültəsini və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosentdir. 12 kitabın müəllifidir. Rus və ingilis dillərini bilir.

1982-ci ildən Mingəçevir şəhərində Azərbaycan DRES tikintisi gənclər qərargahının rəisi, siyasi maarif kabinetinin müdiri, 1992-ci ildən «Səda» qəzetinin müxbiri, Mingəçevir Quraşdırma İdarəsinin şöbə rəisi işləmişdir. 1993-cü ildən Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının köməkçisi, müavini, 1997–2000-ci illərdə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının İctimai-siyasi şöbəsinin sektor müdiri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi sədrinin müavinidir. Azərbaycan-Tacikistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, İran, İsrail, Qazaxıstan, Polşa, Rusiya, Səudiyyə Ərəbistanı, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.

**İlham Kazım oğlu**
**MƏMMƏDOV**



*48 saylı Yevlax*
*seçki dairəsi*

1962-ci il yanvarın 13-də Yevlax şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə işi fakültəsini bitirmişdir. Rus dilini bilir.

1986-cı ildən Yevlax Şəhər Mərkəzi Xəstəxanasında sahə həkimi, həkim-endoskopist, şöbə müdiri, həkim-qastroenteroloq, 2001-ci ildən Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında böyük həkim vəzifələrində çalışmışdır. 2004–2005-ci illərdə Yevlax Şəhər Mərkəzi Xəstəxanasının baş həkimi olmuşdur.

Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatının sədridir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin, Səhiyyə komitəsinin üzvüdür. Azərbaycan-İraq parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Bəhreyn, Estoniya, Misir, Rumıniya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

1 övladı var.



**Əli Məhəmməd oğlu**
**HÜSEYNLİ**

*49 saylı Yevlax-Mingəçevir seçki dairəsi*

1968-ci il oktyabrın 8-də Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Hüquq üzrə fəlsəfə doktorudur. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiyasının, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

Parlament Üzvlərinin Korrupsiyaya qarşı Qlobal Təşkilatının milli koordinatorudur.

1991-ci ildən Azərbaycan Respublikasının Ali Məhkəməsində iclas katibi, məsləhətçi, sədrin köməkçisi işləmişdir. 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında mütəxəssis vəzifəsində çalışmış, 1996–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisi Sədrinin köməkçisi olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri, Gənclər və idman komitəsinin üzvüdür. Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belarus, Böyük Britaniya, Estoniya, İtaliya, Kanada parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.

## Zeynəb Yəhya qızı XANLAROVA



*50 saylı Abşeron-Qobustan seçki dairəsi*

1936-cı il dekabrın 28-də Bakı şəhərində anadan olmuşdur. Bakı Məktəbəqədər tərbiyə pedaqoji məktəbini və Asəf Zeynallı adına Bakı Musiqi Məktəbini bitirmişdir. SSRİ-nin, Azərbaycanın və Özbəkistanın xalq artistidir. Azərbaycan Dövlət mükafatı, Ümumittifaq «Qızıl val» mükafatı laureatıdır. «Heydər Əliyev», «İstiqlal», «Şöhrət» ordenləri və «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilmişdir. Əlcəzairin və Özbəkistanın fəxri vətəndaşıdır. Türkiyənin, Əfqanıstanın və Yəmənin yüksək mükafatlarına və ordenlərinə layiq görülmüşdür. Azərbaycan Milli Yaradıcılıq Akademiyasının fəxri doktorudur. Rus dilini bilir.

Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1958-ci ildən Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsinin solisti, 1961-ci ildən M.F.Axundov adına Akademik Opera və Balet Teatrının baş solisti olmuşdur.

Bitərəfdir.

On birinci və on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, birinci, ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Mədəniyyət komitəsinin üzvüdür. Azərbaycan-Hindistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Mərakeş, Misir, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

2 övladı var.



## Azər Camal oğlu
## BADAMOV

*51 saylı Qusar seçki dairəsi*

1968-ci il avqustun 18-də Qusar rayonunun Düztahir kəndində anadan olmuşdur. Azərbaycan Texnologiya İnstitutunun Qeyri-ərzaq mallarının əmtəəşünaslığı və ticarətin təşkili fakültəsini bitirmişdir. Rus dilini bilir.

1988-ci ildən Kirov adına sovxozda fəhlə, 1990-cı ildən Qusar Şəhər İctimai İaşə İdarəsində iqtisadçı, 1991-ci ildən Qusar Rayon Mərkəzi Xəstəxanasında müfəttiş işləmişdir. 1992-ci ildən Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun Qusar rayon şöbəsinin birinci dərəcəli müfəttişi, 1994-cü ildən «Şahdağ» firmasının iqtisadçısı vəzifələrində çalışmışdır. 2003–2007-ci illərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşdur. 2008–2010-cu illərdə «Aztelekom» İstehsalat Birliyinin Qusar Rayon Telekommunikasiya Qovşağının rəisi olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Regional məsələlər komitəsinin üzvüdür. Azərbaycan-Çili parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Avstraliya və Yeni Zelandiya, Danimarka, İsveç, Portuqaliya, Rusiya, Tacikistan, Yunanıstan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.

**Vahid Qazməmməd oğlu**
**ƏHMƏDOV**



*52 saylı Quba seçki dairəsi*

1947-ci il aprelin 2-də Quba rayonunun Qonaqkənd qəsəbəsində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun Metallurgiya istehsalının avtomatlaşdırılması fakültəsini və Bonn Menecment İnstitutunu bitirmişdir. Texnika doktorudur. Əməkdar mühəndisdir. Onlarca kitabın və məqalənin müəllifidir. 1 ixtirası vardır. Rus dilini bilir.

Azərbaycan Sənayeçilər və Sahibkarlar İttifaqının sədridir.

1967-ci ildən leytenant Şmidt adına Bakı maşınqayırma zavodunda fəhlə, tokar, usta, böyük mühəndis, növbə rəisi, sahə rəisi, sex rəisinin müavini işləmişdir. 1977-ci ildən Bakı radio zavodunda sex rəisi, istehsalat rəisi, 1981-ci ildən Bakı Dəzgahqayırma İstehsalat Birliyində baş mühəndis olmuşdur. 1983-cü ildən «Bakı fəhləsi» zavodunun direktoru, 1986-cı ildən Keşlə maşınqayırma zavodunun direktoru, 1988-ci ildən «Bakneftmaş» İstehsalat Birliyinin baş direktoru vəzifələrində çalışmışdır. 1992–1993-cü illərdə Azərbaycan Respublikası Baş nazirinin müavini, birinci müavini olmuşdur.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Bitərəfdir.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvüdür. Azərbaycan-Mavritaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Böyük Britaniya, Çin, Xorvatiya, İsveçrə, İtaliya, Rusiya, Türkiyə, Türkmənistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Yevda Sasunoviç**
**ABRAMOV**

*53 saylı Quba-Qusar seçki dairəsi*

1948-ci il iyunun 12-də Quba rayonunun Qırmızı Sloboda qəsəbəsində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsini bitirmişdir. Rus, türk və fars dillərini bilir.

1971-ci ildən Quba rayonunda kənd orta məktəbində müəllim, direktor müavini işləmişdir. 1987-ci ildən Qırmızı Sloboda qəsəbəsində İcraiyyə Komitəsinin sədri, orta məktəb müəllimi, 2000–2005-ci illərdə bələdiyyə sədri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İnsan hüquqları komitəsi sədrinin müavinidir. Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Argentina, Kuba, Rusiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin, Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

4 övladı var.

**Tahir Süleyman oğlu**
**SÜLEYMANOV**



*54 saylı Şabran-Siyəzən*
*seçki dairəsi*

1948-ci il sentyabrın 24-də Dəvəçi rayonunun Sumaqova-Qazma kəndində anadan olmuşdur. Moskva Yeyinti Sənayesi İnstitutunun Taxıl məhsullarının saxlanması fakültəsini bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Hacı Zeynalabdin Tağıyev və «Qızıl buta» mükafatlarına layiq görülmüşdür. Rus dilini bilir.

1968-ci ildən Dəvəçidə mağazada satıcı, müdir, 1981-ci ildən «Azərittifaq»ın Dəvəçi tədarük kontorunun direktoru işləmişdir. 1982-ci ildən Pirəbədil xalça fabrikinin iqtisadçısı, direktoru, 1984-cü ildən Xaçmaz Taxıl Məhsulları Kombinatı Dəvəçi filialının anbardarı, Siyəzən şəhərində çörəkbişirmə sexinin ustası, Dəvəçidə mexanikləşdirilmiş çörəkxananın direktoru vəzifələrində çalışmışdır. 1994–2000-ci illərdə Dəvəçi Taxıl Məhsulları Kombinatının direktoru olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət komitəsinin üzvüdür. Bəhreyn, Çin, İsrail, İtaliya, Qazaxıstan, Niderland, Türkiyə, Vyetnam parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Eldəniz Adil oğlu**
**SƏLİMOV**

*55 saylı Xaçmaz şəhər*
*seçki dairəsi*

1976-cı il oktyabrın 2-də Xaçmaz şəhərində anadan olmuşdur. Dağıstan Dövlət Universitetinin Maliyyə və kredit fakültəsini bitirmişdir. «Tərəqqi» medalı ilə təltif edilmişdir. Rus dilini bilir.

2000-ci ildən Azərbaycan Respublikası Vergilər Nazirliyinin Xaçmaz rayon şöbəsində dövlət vergi müfəttişi, 2002-ci ildən 3 saylı Ərazi Vergilər İdarəsində böyük dövlət vergi müfəttişi, baş dövlət vergi müfəttişi, mütəxəssis, böyük dövlət vergi müfəttişi işləmişdir. 2011–2012-ci illərdə «Texnikabank» ASC Xaçmaz filialı müdirinin müavini olmuşdur. 2013–2014-cü illərdə Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyi «Üfüq» İstehsalat Birliyi Xaçmaz kondensator zavodunun mühəndis-iqtisadçısı, 2014–2015-ci illərdə Xaçmaz Rayon İcra Hakimiyyəti başçısının Xaçmaz şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Aqrar siyasət komitəsinin üzvüdür. Avstraliya və Yeni Zelandiya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Çin, İtaliya, Kanada, Qazaxıstan, Lüksemburq parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.

**İlham Əli Səftər oğlu**
**ƏLİYEV**



*56 saylı Xaçmaz kənd*
*seçki dairəsi*

1967-ci il aprelin 26-da Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rus dilini bilir.

1994-cü ildən Azərbaycan Respublikasının Nəqliyyat Prokurorluğunda sistemləşdirmə üzrə prokuror köməkçisi, Aviasiya nəqliyyatı prokurorluğunun stajkeçən müstəntiqi, 1995-ci ildən Yasamal Rayon Prokurorluğunun stajçısı, 1996-cı ildən Ağdam rayon prokurorunun köməkçisi işləmişdir. 2000-ci ildən Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq hüquq söbəsinin prokuroru, 2007–2010-cu illərdə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının  üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvüdür. Azərbaycan-Finlandiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Böyük Britaniya, Çili, İtaliya, Monteneqro, Rusiya, Türkiyə, Vyetnam parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Parlamentlərarası İttifaqda və Türkdilli Ölkələrin Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin üzvüdür.

Evlidir, 3 övladı var.



**Müslüm Mürsəl oğlu**
**MƏMMƏDOV**

*57 saylı Kürdəmir*
*seçki dairəsi*

1980-ci il martın 1-də Ucar şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakültəsini və Bordo Universitetini bitirmişdir. Rus, ingilis və fransız dillərini bilir.

1999–2005-ci illərdə Bakı Dövlət Universitetinin Tərcümə-İnformasiya Mərkəzində tərcüməçi, 2006–2008-ci illərdə «Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası» İctimai Birliyində beynəlxalq münasibətlər üzrə mütəxəssis vəzifələrində çalışmışdır. 2009–2015-ci illərdə Brüssel şəhərində Azərbaycan Kommunikasiya Ofisinin direktoru olmuşdur.

Bitərəfdir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Makedoniya, Mərakeş, Rusiya, Türkiyə, Türkmənistan, Yaponiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 1 övladı var.

## Rafael Baba oğlu
## HÜSEYNOV



*58 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi*

1954-cü il avqustun 12-də Kürdəmir şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmişdir. Filologiya elmləri doktoru, professordur. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Oksford Akademiya İttifaqının həqiqi üzvüdür. Əməkdar incəsənət xadimidir. Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin və Teatr Xadimləri İttifaqının üzvüdür. 14 monoqrafiyanın, 6 dərslik və dərs vəsaitinin, 500 elmi araşdırmanın, 600-dən çox publisistik məqalənin, 5 tammetrajlı sənədli-publisistik filmin ssenarisinin, 3000-dən çox televiziya və radio verilişinin və proqramının müəllifidir. İngilis, rus, fars, ərəb, tacik dillərini bilir.

Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1976-cı ildən Azərbaycan EA-nın Fəlsəfə və Hüquq İnstitutunun baş laborantı, 1978-ci ildən Şərqşünaslıq İnstitutunun baş laborantı, kiçik elmi işçisi, baş elmi işçisi, 1988-ci ildən Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Milli Muzeyinin şöbə müdiri vəzifələrində çalışmışdır. 2003-cü ildən Azərbaycan MEA-nın Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Milli Muzeyinin direktorudur.

Bitərəfdir.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri, Elm və təhsil komitəsinin, Hesablayıcı komissiyasının, Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Almaniya Federativ Respublikası, İran, İspaniya, İtaliya, Kanada, Koreya, Malta, Portuqaliya, Sloveniya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 1 övladı var.



**Əliağa İzzət oğlu**
**HÜSEYNOV**

*59 saylı Salyan seçki dairəsi*

1946-cı il dekabrın 16-da Salyan şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun Mühəndis-mexanika fakültəsini, Bakı Ali Ümumqoşun Komandirləri Məktəbini, SSRİ Silahlı Qüvvələri Baş Qərargahının kurslarını və Bakı Ali Partiya Məktəbini bitirmişdir. General-leytenantdır. «Şöhrət» ordeni ilə, eləcə də 41 digər orden və medalla təltif edilmişdir. Rus və ingilis dillərini bilir.

1970–1972-ci illərdə Bakıda tramvay-trolleybus parkında fəhlə və şərab zavodunda mühəndis-texnik işləmişdir. 1972-ci ildən 26 Bakı Komissarı Rayon Hərbi Komissarlığında bölmə rəisinin köməkçisi, 1976-cı ildən İmişli rayon hərbi komissarının müavini, 1978-ci ildən Əzizbəyov Rayon Hərbi Komissarlığının 2-ci bölməsinin rəisi, hərbi komissarı, 1988-ci ildən Yasamal rayonunun hərbi komissarı, 1997-ci ildən Azərbaycan Respublikasının hərbi komissarı vəzifələrində çalışmışdır. 2009–2010-cu illərdə Salyan Rayon İcra Hakimiyyətinin başçısı olmuşdur.

Bitərəfdir.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvüdür. Azərbaycan-Tailand parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Amerika Birləşmiş Ştatları, Belçika, Çin, Kolumbiya, Koreya, Lüksemburq parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.

**Fəzail Rəhim oğlu**
**AĞAMALI**



*60 saylı Salyan-Neftçala seçki dairəsi*

1947-ci il avqustun 26-da Ermənistan Respublikası Sisian rayonunun Qızıl Şəfəq (Şıxlar) kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdir. Tarix elmləri doktoru, professordur. 4 monoqrafiyanın, 1 dərsliyin və 50-dən çox elmi məqalənin müəllifidir. Rus dilini bilir.

1971-ci ildən Naxçıvan şəhərində orta məktəb müəllimi, Naxçıvan Dövlət Universitetinin müəllimi, baş müəllimi işləmişdir. 1983-cü ildən Azərbaycan Texnologiya İnstitutunda kafedra müdiri, 1988-ci ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda, 1991-ci ildən Azərbaycan Əmtəəşünaslıq İnstitutunda, 2000-ci ildən Azərbaycan İqtisad Universitetində dosent və professor vəzifələrində çalışmışdır. 1992-ci ildə Azərbaycan Respublikası sosial təminat nazirinin müavini, 1993–1994-cü illərdə əmək və əhalinin sosial müdafiəsi nazirinin birinci müavini və naziri əvəzi olmuşdur.

Ana Vətən Partiyasının sədridir.

Birinci, ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvüdür. Azərbaycan-İspaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Bolqarıstan, İsveç, Sloveniya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin və Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 3 övladı var.



**Arif Qafar oğlu**
**RƏHİMZADƏ**

*61 saylı Neftçala seçki dairəsi*

1941-ci ilin fevral ayında Gəncə şəhərində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu və Bakı Ali Partiya Məktəbini bitirmişdir. Kənd təsərrüfatı elmləri namizədidir.

Əmək fəaliyyətinə 1963-cü ildə institutu bitirdikdən sonra başlamışdır. Azərbaycan Elmi Tədqiqat Heyvandarlıq İnstitutunda elmi işçi, Leninqrad Vilayət Meyvə-Tərəvəz Müfəttişliyində müfəttiş, Krım təcrübə stansiyasında elmi işçi, Azərbaycan Elmi Tədqiqat Yemçilik İnstitutunda elmi katib, baş elmi işçi, Azərbaycan Nazirlər Sovetində baş referent, Azərbaycan KP MK-da təlimatçı, bölmə müdiri, şöbə müdirinin müavini, Quba Rayon Partiya Komitəsinin birinci katibi, Azərbaycan KP MK-nın şöbə müdiri, Azərbaycan Respublikasının Ali Sovetində komissiya sədri, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında dövlət müşaviri vəzifələrində çalışmışdır.

On birinci və on ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, birinci, ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş, 1994-cü il oktyabrın 14-dən 2005-ci il dekabrın 2-dək parlament Sədrinin birinci müavini vəzifəsində çalışmışdır.

Milli Məclisin Regional məsələlər komitəsinin sədridir. MDB-nin Parlamentlərarası Assambleyasında komissiya sədridir. Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Belarus, Böyük Britaniya, Rusiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Bir sıra dövlət ordenləri, o cümlədən «Şöhrət» ordeni və MDB-nin Parlamentlərarası Assambleyasının «Дружба» ordeni ilə təltif edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin fəxri medalına layiq görülmüşdür.

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvüdür. Rus dilini bilir.

**Əflatun Əhməd oğlu**
**AMAŞOV**



*62 saylı Saatlı*
*seçki dairəsi*

1957-ci il aprelin 26-da Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində anadan olmuşdur. Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirmişdir. Əməkdar jurnalistdir. 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif edilmişdir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu Müşahidə Şurasının, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1986-cı ildən Azərbaycan Dövlət İnformasiya Agentliyinin (Azərinform) müxbiri, 1992–1993-cü illərdə baş direktorunun birinci müavini, 1993–2000-ci illərdə AzərTAc Teleqraf Agentliyinin buraxılış redaktoru vəzifələrində çalışmışdır. 2000–2003-cü illərdə «Ruh» Azərbaycan Jurnalistlərini Müdafiə Komitəsinin sədri olmuşdur. 2003-cü ildən Azərbaycan Mətbuat Şurasının sədridir.

Bitərəfdir.

Milli Məclisin İnsan hüquqları komitəsinin, Mədəniyyət komitəsinin üzvüdür. Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Böyük Britaniya, Çin, İndoneziya, İran, İsveçrə, Macarıstan, Makedoniya, Malayziya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 1 övladı var.



**Elçin Bəybala oğlu**
**QULİYEV**

*63 saylı Sabirabad birinci seçki dairəsi*

1960-cı il sentyabrın 12-də Sabirabad şəhərində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Maliyyə və kredit fakültəsini bitirmişdir. Rus dilini bilir.

1984–1990-cı illərdə SSRİ Dövlət Bankının Sabirabad filialında mühasib, böyük iqtisadçı işləmiş, 1991-ci ildən Azərbaycan Aqrar Sənaye Bankının Sabirabad şöbəsində aparıcı iqtisadçı, baş iqtisadçı, 1998-ci ildən «İlkin» QİB Kredit Birliyi İdarə Heyətinin sədri, 1999-cu ildən Sabirabad rayon Dövlət Vergi Müfəttişliyinin rəisi, 2000-ci ildən Sabirabad rayon Vergilər Şöbəsinin rəisi, 2001-ci ildən Azərbaycan Respublikası Vergilər Nazirliyinin 2 saylı Ərazi Vergilər İdarəsinin rəis müavini, rəisi, 2002-ci ildən 5 saylı Ərazi Vergilər İdarəsi rəisinin müavini, 2006-cı ildən Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin Salyan SMP Ərazi İdarəsinin rəisi vəzifələrində çalışmış, 2007–2015-ci illərdə Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin şöbə müdiri, Aparat rəhbərinin müavini, Aparat rəhbəri olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Aqrar siyasət komitəsinin üzvüdür. Avstriya, Belarus, Çin, İtaliya, Özbəkistan, Serbiya, Türkiyə, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.

**Rüstəm Gülabba oğlu**
**XƏLİLOV**



*64 saylı Sabirabad ikinci seçki dairəsi*

1958-ci il iyulun 1-də Sabirabad rayonunun Hacıbəbir kəndində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Aqronomluq fakültəsini və Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu bitirmişdir. Rus dilini bilir.

1980-ci ildən Sabirabad rayonunda kənd təsərrüfatı idarəsində aqronom, 1983-cü ildən rayon Komsomol Komitəsinin katibi, ikinci katibi, birinci katibi, 1989-cu ildən Sabirabad Rayon Partiya Komitəsinin Təşkilat və kadr işi şöbəsinin müdiri işləmişdir. 1991-ci ildən G.Xəlilov adına kolxozun idarə heyətinin sədri, 2000-ci ildən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Astara gömrük keçid məntəqəsi rəisinin müavini vəzifələrində çalışmış, 2002–2005-ci illərdə fərdi təsərrüfatçılıqla məşğul olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Regional məsələlər komitəsinin üzvüdür. Azərbaycan-Argentina parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belarus, Çexiya, Gürcüstan, Koreya, Qazaxıstan, Latviya, Macarıstan, Moldova, Rusiya, Türkiyə, Türkmənistan, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 4 övladı var.



## Əhliman Tapdıq oğlu ƏMİRASLANOV

*65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsi*

1947-ci il noyabrın 17-də Ermənistan Respublikası Basarkeçər rayonunun Zod kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Tibb elmləri doktoru, professordur. Əməkdar elm xadimidir. Azərbaycan Milli Elmlər Akademiyasının, Rusiya Tibb Elmləri Akademiyasının və Polşa Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvüdür. UNESCO-nun Bioetika, elm və texnologiyaların etikası üzrə Azərbaycan milli komitəsinin sədridir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. SSRİ Dövlət mükafatı laureatıdır, SSRİ TEA-nın akademik Petrov adına mükafatına və akademik Bloxin adına qızıl medalına, Polşa TEA-nın Albert Şvaytzer mükafatına və Böyük qızıl medalına, Rusiyanın «Millətin intellekti» beynəlxalq mükafatına, «Akademik Mustafa Topçubaşov» fəxri döş nişanına layiq görülmüşdür. AMEA-nın Biologiya və tibb elmləri bölməsinin akademik-katibidir. Ümumdünya Onkoloqlar, Ortoped-Travmotoloqlar Assosiasiyasının, Amerika Klinik Onkologiya Cəmiyyətinin, Avropa Bərpa Cərrahlığı Assosiasiyasının üzvüdür. 500-dən çox elmi əsərin, 18 monoqrafiyanın, 31 dərsliyin və dərs vəsaitinin müəllifidir. 16 ixtirası və səmərələşdirici təklifi vardır. 48 nəfər elmlər və fəlsəfə doktoru hazırlamışdır. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının üzvüdür.

1971-ci ildən Bakı Şəhər Klinik Onkologiya Xəstəxanasında həkim-ordinator, cərrahiyyə şöbəsinin müdiri işləmişdir. 1977-ci ildən Moskvada SSRİ Tibb Elmləri Akademiyasının Onkoloji Elmi Mərkəzinin kiçik elmi işçisi, baş elmi işçisi, böyük elmi işçisi, professoru vəzifələrində çalışmışdır. 1992–2015-ci illərdə Azərbaycan Tibb Universitetinin rektoru olmuşdur. 1993-cü ildən Azərbaycan Tibb Universitetinin Onkologiya kafedrasının müdiri, həmin universitetin Onkoloji Klinikasının direktorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Səhiyyə komitəsinin sədridir. Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, Monteneqro, Niderland, Rusiya, Səudiyyə Ərəbistanı parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Türkdilli Ölkələrin Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü və Assambleyanın komissiya sədridir.

Evlidir, 2 övladı var.

## Xanhüseyn Hüseynağa oğlu
## KAZIMLI



*66 saylı Biləsuvar seçki dairəsi*

1942-ci il oktyabrın 1-də İmişli rayonunun Ağaməmmədli kəndində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Uçot-iqtisad fakültəsini bitirmişdir. İqtisad elmləri doktoru, professordur. «Şöhrət» ordeni ilə təltif edilmişdir. «Qızıl qələm» və Hacı Zeynalabdin Tağıyev mükafatları laureatıdır. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 55-dən çox monoqrafiya və dərsliyin, 7 tədqiqat əsərinin, 350-dən çox elmi-publisistik məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

Avrasiya Qiymətləndiricilər Birlikləri Assosiasiyası İdarə Heyətinin sədri, Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin fəxri sədridir.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının üzvüdür. Azərbaycan Respublikası Veteranlar Şurası İdarə Heyətinin üzvüdür.

1967-ci ildən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda laborant, baş laborant, müəllim, baş müəllim, dosent, professor, kafedra müdiri, prorektor vəzifələrində çalışmışdır. 1994–1998-ci illərdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Baş Qiymətlər İdarəsinin rəisi, 1998–1999-cu illərdə Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri işləmişdir. 1998-ci ildə keçirilən Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd olmuşdur. Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin Qiymət və qiymətləndirmə kafedrasının müdiri, Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində itki və tələfatın qiymətləndirilməsi üzrə işçi qrupunun rəhbəridir.

Azərbaycan Sosial Rifah Partiyasının sədridir.

Birinci, ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Hesablayıcı komissiyasının üzvüdür. Azərbaycan-Macarıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Cənubi Afrika Respublikası, Səudiyyə Ərəbistanı parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 5 övladı var.



**Malik Əvəz oğlu**
**HƏSƏNOV**

*67 saylı Cəlilabad şəhər seçki dairəsi*

1971-ci il fevralın 15-də Cəlilabad rayonunun Günəşli kəndində anadan olmuşdur. Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun Rus dili və ədəbiyyatı fakültəsini və Azərbaycan Dövlət İqtisad Universitetinin Mühasibat uçotu və audit fakültəsini bitirmişdir. Rus dilini bilir.

1997-ci ildən Xəzər Dəniz Gəmiçiliyi İdarəsində müfəttiş, 2003-cü ildən Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin Nəqliyyatda əlaqələndirmə şöbəsinin müdiri işləmişdir. 2007–2010-cu illərdə «Azinko holdinq» tikinti şirkətinə rəhbərlik etmişdir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Regional məsələlər komitəsinin üzvüdür. Azərbaycan-Koreya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çexiya, Çin, İsveçrə, Latviya, Monteneqro, Rusiya, Slovakiya, Sloveniya, Türkiyə, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin, Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 3 övladı var.

## Mirkazım Məhəmməd oğlu KAZIMOV



*68 saylı Cəlilabad kənd seçki dairəsi*

1950-ci il oktyabrın 10-da Cəlilabad rayonunun Hasıllı kəndində anadan olmuşdur. Moskva Yeyinti Sənayesi İnstitutunun Balıqçılıq təsərrüfatı fakültəsini bitirmişdir. Rus dilini bilir.

1973-cü ildən Riqa balıq bazasında usta, 1977-ci ildən «Cənubxəzərbalıqdəniz» İdarəsində müfəttiş, 1993-cü ildən Sabunçu balıq ovu və emalı zavodunda mühəndis-texnoloq işləmişdir. 1994-cü ildən Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında baş təlimatçı, işlər müdiri vəzifələrində çalışmışdır. 1996-cı ildən «Qasid» Açıq Səhmdar Cəmiyyətinin sədridir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, İctimai birliklər və dini qurumlar komitəsinin, İntizam komissiyasının üzvüdür. Azərbaycan-Albaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Argentina, Koreya, Malayziya, Rumıniya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Fəzail Feyruz oğlu**
**İBRAHİMLİ**

*69 saylı Cəlilabad-Masallı-Biləsuvar seçki dairəsi*

1951-ci il aprelin 12-də Yardımlı rayonunun Çanaqbulaq kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Tarix elmləri doktoru, professordur. 80-dən çox elmi əsərin müəllifidir. Rus dilini bilir.

1973–1977-ci illərdə Yardımlı rayonunda orta məktəb müəllimi işləmişdir. 1977–1982-ci illərdə hərbi xidmətdə olmuş, aspiranturada təhsil almışdır. 1982-ci ildən Azərbaycan Dövlət Universitetində müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır. 2000-ci ildən Bakı Dövlət Universitetinin professorudur.

Vətəndaş Həmrəyliyi Partiyasının üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Regional məsələlər komitəsinin, Mədəniyyət komitəsinin, Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Azərbaycan-Liviya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belçika, Cənubi Afrika Respublikası, Meksika, Rumıniya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.

**Nəriman Əlibala oğlu**
**ƏLİYEV**



*70 saylı Masallı şəhər seçki dairəsi*

1968-ci il avqustun 30-da Masallı şəhərində anadan olmuşdur. Bakı Yeyinti Sənayesi Texnikumunu, Cənubi Rusiya Humanitar İnstitutunun Hüquq fakültəsini və «Odlar Yurdu» Universitetinin Hüquq fakültəsini, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsini bitirmişdir. Rus dilini bilir.

1991–1998-ci illərdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmuşdur. 1999-cu ildən «Nur-M» Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru vəzifəsində çalışır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvüdür. Azərbaycan-İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, İran, İspaniya, Niderland, Portuqaliya, Tailand, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.



**Elmira Hüseyn qızı**
**AXUNDOVA**

*71 saylı Masallı kənd*
*seçki dairəsi*

1953-cü il mayın 26-da Rusiya Federasiyası Moskva vilayətinin Ramenskoye qəsəbəsində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişdir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Filologiya üzrə fəlsəfə doktorudur. Əməkdar jurnalistdir. «Şöhrət» ordeni və «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilmişdir. Dövlət mükafatına layiq görülmüşdür. Həsən bəy Zərdabi, Rəsul Rza və Nəcəf Nəcəfov mükafatları laureatıdır. Bir sıra bədii və publisistik kitabların müəllifidir. Rus və fransız dillərini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Əfv məsələləri komissiyasının üzvüdür.

1977-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, 1980-ci ildən Azərbaycan Yazıçılar İttifaqında referent-məsləhətçi, 1988-ci ildən Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda baş elmi işçi vəzifələrində çalışmışdır. 1990-cı ildən «Литературная газета»nın, 1993-cü ildən «Свобода» radiosunun müxbiri, 1998-ci ildən «Общая газета»nın Azərbaycan üzrə xüsusi müxbiri, 2002–2004-cü illərdə Bakı Slavyan Universitetinin dosenti, 2004–2005-ci illərdə R.Rza adına Beynəlxalq Ədəbiyyat Fondunun vitse-prezidenti olmuşdur.

Bitərəfdir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin, Mədəniyyət komitəsinin üzvüdür. Azərbaycan-Lüksemburq parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Küveyt, Macarıstan, Rusiya, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

2 övladı var.

**Musa Cəfər oğlu QASIMLI**



*72 saylı Yardımlı-Masallı seçki dairəsi*

1957-ci il oktyabrın 28-də Yardımlı rayonunun Hamarkənd kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Tarix elmləri doktoru, professordur. ABŞ-da Orta Şərq Araşdırmaları Mərkəzinin, Türkiyədə Turan Strateji Araşdırma Mərkəzinin, Orta Asiya və Qafqaz Araşdırmaları Mərkəzinin üzvüdür. Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvüdür. Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Qabaqcıl təhsil işçisi» döş nişanı ilə təltif edilmişdir. Azərbaycanda və xarici ölkələrdə 10 dildə nəşr edilmiş 47 kitabın, 164 elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1979–1982-ci illərdə Yardımlı rayonunun orta məktəblərində müəllim işləmişdir. 1982–1992-ci illərdə Azərbaycan Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının aspirantı, müəllimi, baş müəllimi, dosenti, universitetin Tarix fakültəsi dekanının müavini olmuşdur. 1992-ci ildən Azərbaycan Respublikası Ali Soveti Katibliyinin Beynəlxalq münasibətlər şöbəsində aparıcı mütəxəssis, baş məsləhətçi vəzifələrində çalışmışdır. 1997-ci ildən Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının professorudur. 2016-cı ilin yanvarından AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktorudur.

Bitərəfdir.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Elm və təhsil komitəsinin üzvüdür. Azərbaycan-Əfqanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Bosniya və Herseqovina, Braziliya, Danimarka, Estoniya, Kanada, Malta, Peru, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 4 övladı var.



**Rüfət Atakişi oğlu**
**QULİYEV**

*73 saylı Lənkəran şəhər seçki dairəsi*

1963-cü il mayın 6-da Bakı şəhərində anadan olmuşdur. Kiyev Dövlət Universitetinin İqtisadiyyat fakültəsini bitirmişdir. İqtisad elmləri doktoru, professordur. Azərbaycanda və xarici ölkələrdə nəşr edilmiş 250-yə yaxın elmi əsərin və məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası İqtisadiyyat bölməsinin ekspert şurasının, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun Himayəçilər Şurasının üzvüdür.

1986-cı ildən Azərbaycan Politexnik İnstitutunda baş laborant, müəllim, baş müəllim, 1997-ci ildən Azərbaycan Texniki Universitetində dosent vəzifələrində çalışmışdır. 1999-cu ildən «European Tobacco-Baku» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədridir. 2013-cü ildən Azərbaycan Texniki Universitetinin İqtisadi nəzəriyyə və xidmət sahələrinin iqtisadiyyatı kafedrasının müdiridir.

Bitərəfdir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvüdür. Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Danimarka, Hindistan, İtaliya, Peru, Portuqaliya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin, Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 2 övladı var.

**Hadi Musa oğlu**
**RƏCƏBLİ**



*74 saylı Lənkəran kənd seçki dairəsi*

1947-ci il oktyabrın 25-də Lənkəran rayonunun Veravul kəndində anadan olmuşdur. Moskva Yeyinti Sənayesi İnstitutunun Texnologiya fakültəsini və Bakı Ali Partiya məktəbini bitirmişdir. Siyasi elmlər doktoru, professordur. «Şöhrət» ordeni ilə təltif edilmişdir. 9 kitabın və 220-dən çox elmi-publisistik məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə dövlət komissiyasının üzvüdür.

1963-cü ildən Lənkəran çörək zavodunda fəhlə, mühasib, texnoloq, iqtisadçı işləmişdir. 1971-ci ildən Lənkəran Şəhər Komsomol Komitəsinin ikinci katibi, 1972-ci ildən birinci katibi, 1978-ci ildən «Бакинский рабочий» qəzetinin xüsusi müxbiri, 1980-ci ildən Lənkəran Şəhər İcraiyyə Komitəsinin sədri olmuşdur. 1981-ci ildən Azərbaycan KP MK-nın Təşkilat-partiya işi şöbəsinin inspektoru, 1983-cü ildən Şəki Şəhər Partiya Komitəsinin birinci katibi, 1989–1995-ci illərdə Azərbaycan Respublikasının Nazirlər Kabinetində referent, aparıcı mütəxəssis, bölmə müdiri, şöbə müdirinin müavini, şöbə müdiri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

On birinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, birinci, ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədridir. Azərbaycan-Yunanıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belarus, Çin, İran, Koreya, Serbiya, Yaponiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.



**Cavanşir Hümmət oğlu**
**PAŞAZADƏ**

*75 saylı Lənkəran-Masallı seçki dairəsi*

1953-cü il aprelin 12-də Lənkəran rayonunun Cil kəndində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının Kənd təsərrüfatının iqtisadiyyatı və təşkili fakültəsini bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Rus, fars, özbək və tacik dillərini bilir.

1977-ci ildən Lənkəran Su Tikinti İdarəsində texnik, mühəndis, suvarma istehsalatında sahə ustası, sahə rəisi, tikinti trestində əmtəəşünas, usta işləmişdir. 1986-cı ildən Lənkəran Texniki Materiallar Bazasında mühəndis, neft məhsulları bazasında operator, paylayıcı briqadir, direktor müavini olmuşdur. 1992-ci ildən Lənkəran 3 saylı çay fabrikinin direktoru, 1998–2005-ci illərdə Qızılağac Dövlət Təbiət Qoruğunun direktoru vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət komitəsinin, İctimai birliklər və dini qurumlar komitəsinin üzvüdür. Azərbaycan-Birləşmiş Ərəb Əmirlikləri parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, İraq, Özbəkistan, Pakistan, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.

**Ziyafət Abbas oğlu**
**ƏSGƏROV**



*76 saylı Lənkəran-Astara seçki dairəsi*

2005-ci il dekabrın 2-dən Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavinidir.

1963-cü il oktyabrın 24-də Naxçıvan Muxtar Respublikası Naxçıvan rayonunun (indiki Babək rayonunun) Aşağı Uzunoba kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin fəxri medalına layiq görülmüşdür. Hüquq üzrə fəlsəfə doktoru, professordur. Müxtəlif dərslik, dərs vəsaiti və onlarca elmi məqalənin müəllifidir. Rus və fransız dillərini bilir.

1995-ci ildə Azərbaycan Respublikasının ilk milli Konstitusiyasını işləyib hazırlayan Komissiyanın işçi qrupunun üzvü olmuşdur.

Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiyasının, Məhkəmə-Hüquq Şurasının, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1990-cı ildən Bakı Dövlət Universitetində Konstitusiya hüququ kafedrasının müəllimi, baş müəllimi, dosenti, kafedra müdirinin müavini, Hüquq fakültəsi dekanının müavini vəzifələrində çalışmışdır. Hazırda Konstitusiya hüququ kafedrasının professoru və müdiridir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Birinci, ikinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş, 2000-ci il noyabrın 24-dən 2005-ci il dekabrın 2-dək parlament Sədrinin müavini, 2015-ci il noyabrın 24-dək Təhlükəsizlik və müdafiə komitəsinin sədri vəzifələrində çalışmışdır.

2015-ci il noyabrın 24-dən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədridir.

NATO-nun Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir.

Evlidir, 2 övladı var.



## Rəşad Məmmədqulu oğlu MAHMUDOV

*77 saylı Astara seçki dairəsi*

1974-cü il yanvarın 18-də Astara rayonunda anadan olmuşdur. Türkiyə Respublikasında 9 Eylül Universitetini və Ege Universitetini bitirmişdir. Əməkdar həkimdir. Tibb elmləri doktorudur. «Tərəqqi» medalı ilə təltif edilmişdir. «Qızıl çinar» mükafatına layiq görülmüşdür. 20-yə qədər beynəlxalq konfransın təşkilatçısı, Azərbaycanda və xarici ölkələrdə nəşr edilmiş 2 kitabın, 80-ə yaxın elmi məruzə və məqalənin müəllifidir. İngilis və rus dillərini bilir.

«Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası» İctimai Birliyi Rəyasət Heyətinin sədridir.

1997–2003-cü illərdə Türkiyə Respublikasının Ege Universitetində Ürək cərrahiyyəsi kafedrasında həkim cərrah, 2003–2004-cü illərdə Sifa xəstəxanasında ürək və damar cərrahı, 2004–2005-ci illərdə Kent Xəstəxanasında ürək və damar cərrahı kimi çalışmışdır. 2005–2015-ci illərdə Mərkəzi Neftçilər Xəstəxanasında Ürək və Damar Cərrahiyyəsi Mərkəzinin rəhbəri olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Səhiyyə komitəsinin üzvüdür. Almaniya Federativ Respublikası, Avstraliya və Yeni Zelandiya, Böyük Britaniya, Estoniya, İtaliya, Özbəkistan, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa İttifaqı–Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvüdür.

Evlidir, 3 övladı var.

**İqbal Nəriman oğlu**
**MƏMMƏDOV**



*78 saylı Lerik*
*seçki dairəsi*

1965-ci il yanvarın 6-da Lerik rayonunun Rəzgov kəndində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Mühasibat uçotu və təsərrüfat fəaliyyətinin təhlili fakültəsini bitirmişdir. İqtisadiyyat üzrə fəlsəfə doktorudur. «Tərəqqi» medalı ilə təltif edilmişdir. Rus və ingilis dillərini bilir.

1988-ci ildən Sov.İKP-nin XXII qurultayı adına NQÇİ-də operator, mühasib, iqtisadçı, 1990-cı ildən «28 Aprel» NQÇİ-də baş mühasibin müavini, 1991-ci ildən N.Nərimanov adına NQÇİ-də baş mühasib, şöbə rəisi, Qum adası NQÇİ-də baş mühasib işləmişdir. 1996–1999-cu illərdə «Kaspi-Yıldız» Azərbaycan–Türkiyə Müştərək Müəssisəsi İdarə Heyətinin sədri olmuşdur. 1999-cu ildən Əzizbəyov Rayon Vergilər Müfəttişliyinin Qeyri-dövlət müəssisələrində vergi qanunvericiliyinə və dövlət qiymət intizamına nəzarət şöbəsinin müfəttişi, Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquqi şəxslərdə vergi qanunvericiliyinə əməl edilməsinə nəzarət baş idarəsinin Ticarət və xidmət təşkilatlarında vergi qanunvericiliyinə nəzarət şöbəsinin böyük müfəttişi, 2000–2010-cu illərdə «Kaspi-Yıldız» Azərbaycan–Türkiyə müştərək müəssisəsi idarə heyətinin sədri, «Azqazservis» MMC-nin baş direktoru vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət komitəsinin üzvüdür. Azərbaycan-Monteneqro parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Birləşmiş Ərəb Əmirlikləri, Çili, İndoneziya, İtaliya, Koreya, Qazaxıstan, Malayziya, Niderland, Özbəkistan, Türkiyə, Ukrayna, Yunanıstan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.



**Əsabil Qarakişi oğlu**
**QASIMOV**

*79 saylı İmişli*
*seçki dairəsi*

1955-ci il noyabrın 8-də İmişli rayonunun Qaralar kəndində anadan olmuşdur. Ümumittifaq Yeyinti Sənayesi İnstitutunun Texnologiya fakültəsini bitirmişdir. Rus dilini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Sahibkarlar Şurasının üzvüdür.

1972-ci ildən İmişli çörək zavodunda texnoloq, 1977-ci ildən İmişli tədarük kontorunda tədarükçü, çörək zavodunda usta köməkçisi, baş mühəndis vəzifələrində çalışmışdır. 1995-ci ildən «Karat» holdinqinin direktorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvüdür. Azərbaycan-Kolumbiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Çexiya, Gürcüstan, İtaliya, Qətər, Rusiya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.

**Çingiz Aşralı oğlu**
**QƏNİZADƏ**



*80 saylı İmişli-Beyləqan*
*seçki dairəsi*

1957-ci il avqustun 1-də Ağdaş şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Hüquq üzrə fəlsəfə doktorudur. Rus və fransız dillərini bilir.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının üzvüdür.

1974–1978-ci illərdə Ağdaş təmir-tikinti sahəsində fəhlə, rayon Daxili İşlər Şöbəsi yanında mühafizə bölməsində gözətçi işləmişdir. 1979-cu ildən Bakı Yanğından Mühafizə Cəmiyyətində təlimatçı, 1990-cı ildən Ədliyyə Nazirliyində söbə rəisinin müavini, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının vəkili, 1992-ci ildən Bakı şəhərinin prokuroru, 1994-cü ildən «FDS» Azərbaycan–Türkiyə müştərək müəssisəsinin hüquqşünası vəzifələrində çalışmışdır. 1999-cu ildən Demokratiya və insan hüquqları komitəsinin sədridir.

Bitərəfdir.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvüdür. Azərbaycan-Bosniya və Herseqovina parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Avstriya, Belarus, Böyük Britaniya, Çexiya, Finlandiya, İspaniya, Rusiya, Türkiyə, Yunanıstan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Şahin Əmir oğlu
İSMAYILOV**

*81 saylı Beyləqan
seçki dairəsi*

1986-cı il fevralın 7-də Ermənistan Respublikasının Yexeqnadzor rayonunda anadan olmuşdur. Azərbaycan Dillər Universitetinin Avropaşünaslıq və beynəlxalq münasibətlər fakültəsini bitirmişdir. Gənclər üçün Prezident mükafatına layiq görülmüşdür. Fransız, rus və ingilis dillərini bilir.

2008–2009-cu illərdə Azərbaycan Dillər Universitetində Tələbə Gənclər Təşkilatının sədri, tədris hissəsinin dispetçeri, İnformasiya Resursları Kompleksinin baş mütəxəssisi vəzifələrində çalışmışdır. 2009-cu ildən Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Müşahidə Şurasının üzvüdür.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Gənclər və idman komitəsinin üzvüdür. Argentina, Kanada, Koreya, Litva, Səudiyyə Ərəbistanı, Türkiyə, Türkmənistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.

**Tahir Musa oğlu**
**RZAYEV**



*82 saylı Ağcabədi*
*seçki dairəsi*

1950-ci il fevralın 24-də Ağcabədi rayonunun Xəlfərəddin kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini və Bakı Ali Partiya Məktəbini bitirmişdir. Fəlsəfə doktorudur. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 20 kitabın müəllifidir. Rus dilini bilir.

1970-ci ildən Ağcabədi rayonunun tikinti idarələrində fəhlə, 1971-ci ildən Ağcabədi rayonunda çıxan «Sürət» qəzetində ədəbi işçi, 1977-ci ildən rayon Komsomol Komitəsinin ikinci katibi, birinci katibi, 1982-ci ildən Ağcabədi Rayon Partiya Komitəsinin təlimatçısı, 1987-ci ildən Ağcabədi Rayon İcraiyyə Komitəsi sədrinin birinci müavini, Ağcabədi Rayon Partiya Komitəsinin ikinci katibi işləmişdir. 1989–1994-cü illərdə rayon yemçilik birliyində fəhlə, «Ülfət» qəzetində ədəbi işçi, «Aran» qəzetində şöbə müdiri, 1994–1999-cu illərdə Ağcabədi Rayon İcra Hakimiyyəti başçısının köməkçisi, İcra Hakimiyyətinin şöbə müdiri, 1999–2001-ci illərdə Ağcabədi şəhər bələdiyyəsinin sədri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin, Regional məsələlər komitəsinin üzvüdür. Azərbaycan-Qətər parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Ekvador, Əfqanıstan, Norveç, Pakistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



**Aqil Məhəmməd oğlu**
**ABBAS**

*83 saylı Ağcabədi-Füzuli seçki dairəsi*

1953-cü il aprelin 1-də Ağcabədi rayonunun Bayat kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişdir. Əməkdar jurnalistdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Lenin komsomolu, «Araz», «Dan ulduzu», «Qızıl qələm», «Qızıl kəlmə» mükafatları laureatıdır. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 20 kitabın və 1 filmin ssenari müəllifidir. Rus dilini bilir.

1976-cı ildən Ağsu şəhər internat məktəbində müəllim işləmişdir. 1977-ci ildən «Elm və həyat» jurnalının, 1987-ci ildən «Sovet kəndi» qəzetinin şöbə müdiri vəzifələrində çalışmışdır. 1990–2005-ci illərdə «Ədalət» qəzetinin baş redaktoru olmuşdur. 2005-ci ildən həmin qəzetin təsisçisidir.

Bitərəfdir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Mədəniyyət komitəsinin üzvüdür. Albaniya, Meksika, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.

**Bahar Əvəz qızı**
**MURADOVA**



*84 saylı Füzuli seçki dairəsi*

2005-ci il dekabrın 2-dən Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavinidir.

1962-ci il martın 20-də Füzuli şəhərində anadan olmuşdur. Bakı Yüngül Sənaye Texnikumunu fərqlənmə diplomu ilə, Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini və Azərbaycan Universitetinin Hüquq fakültəsini bitirmişdir. «Şöhrət» ordeni ilə təltif edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin fəxri medalına layiq görülmüşdür. «Xan qızı Natəvan», «Vətən» və digər mükafatların laureatıdır. Siyasi elmlər üzrə fəlsəfə doktorudur. İngilis və rus dillərini bilir.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1981-ci ildən Bakıda tikiş fabrikində tikişçi-nəzarətçi, 1989-cu ildən Azərbaycan Könüllü Kitabsevərlər Cəmiyyətinin, 1992-ci ildən «Qayğı» Cəmiyyəti Yasamal rayon təşkilatının məsul katibi işləmişdir. 1993-cü ildən Yasamal Rayon İcra Hakimiyyətinin təlimatçısı, 1995–2000-ci illərdə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının İctimai-siyasi şöbəsinin referenti vəzifələrində çalışmışdır. 1995–2009-cu illərdə YAP-ın Qadınlar Şurası sədrinin müavini, 1999–2005-ci illərdə YAP-ın icra katibinin müavini olmuşdur. 2013-cü ildən YAP-ın Beynəlxalq əlaqələr komissiyasının sədridir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının və İdarə Heyətinin üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İnsan hüquqları komitəsinin sədridir.

Azərbaycan-İsveçrə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir.

Evlidir, 1 övladı var.



**Elxan Sirac oğlu SÜLEYMANOV**

*85 saylı Şamaxı seçki dairəsi*

1940-cı il dekabrın 6-da Göyçay rayonunun Hacalı kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Teatr İnstitutunun Mədəni-maarif fakültəsini bitirmişdir. «Şöhrət» ordeni və «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu» ilə təltif edilmişdir. 15-dən çox kitabın müəllifidir. Rus dilini bilir.

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının təsisçisidir.

1966–1990-cı illərdə Bakı şəhərində müxtəlif mədəniyyət müəssisələrinə rəhbərlik etmişdir. 1990–1998-ci illərdə Rusiya–Amerika Universiteti Azərbaycan bölməsinin baş direktoru, 1996-cı ildən həm də Azərbaycan–Bolqarıstan birgə müəssisəsinin baş direktoru, 2003–2010-cu illərdə «Xəzər XXI əsr» Məhdud Məsuliyyətli Cəmiyyətinin baş direktoru vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Azərbaycan-Belçika parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Bolqarıstan, Bosniya və Herseqovina, Finlandiya, Fransa, Mərakeş, Sloveniya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.

**Novruzəli Davud oğlu**
**ASLANOV**



*86 saylı İsmayıllı*
*seçki dairəsi*

1963-cü il martın 22-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun Avtomatika və elektron-hesablayıcı texnika fakültəsini bitirmişdir. Beynəlxalq Ekologiya-Energetika Akademiyasının fəlsəfə doktorudur. 3-cü və 2-ci dərəcəli «Vətənə xidmətə görə» ordenləri və «Tərəqqi» medalı ilə təltif edilmişdir. 10 kitabın müəllifidir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının üzvüdür.

1985-ci ildən Bakı elektron-hesablayıcı maşınlar zavodunda mühəndis-konstruktor, böyük mühəndis, şöbə müdiri, direktor müavini işləmişdir. 1991-ci ildən «Azərağackağız» İdarəsinin rəis müavini, rəisi, «Azərağackağız» Səhmdar Cəmiyyətinin sədri, prezidenti vəzifələrində çalışmışdır. 1999–2003-cü illərdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin sədri olmuşdur. 2003-cü ildən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidentidir.

Bitərəfdir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət komitəsinin, Mədəniyyət komitəsinin üzvüdür. Albaniya, Bəhreyn, Bosniya və Herseqovina, Danimarka, Kuba, Monteneqro, Rusiya, Tacikistan, Uruqvay, Vyetnam parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.



**Tahir Zayıdağa oğlu**
**KƏRİMLİ**

*87 saylı Ağsu-İsmayıllı seçki dairəsi*

1956-cı il martın 5-də Ağsu şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1977-ci ildən Ağsu şəhərindəki 1 saylı orta məktəbdə təsərrüfat müdiri işləmiş, 1979–1982-ci illərdə Ağsu Aqrar İstehsalat Birliyində fəhlə, hüquqşünas, hüquq məsləhətçisi, Hüquq bürosunun rəisi, 1982–1986-cı illərdə Ağsu Xalq Məhkəməsinin iclas katibi və hakimi əvəzi, 1987–1992-ci illərdə İsmayıllı rayonunun xalq hakimi vəzifələrində çalışmışdır. 1992–1993-cü illərdə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri, 1993–1998-ci illərdə Bakı və Kəndlər Birliyi Hüquq şöbəsinin müdiri olmuşdur.

Vəhdət Partiyasının sədridir.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, İnsan hüquqları komitəsinin üzvüdür. Almaniya Federativ Respublikası, Braziliya, Çin, Qətər, Türkiyə, Yaponiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 4 övladı var.

**Sabir Kamal oğlu**
**HACIYEV**



*88 saylı Göyçay*
*seçki dairəsi*

1954-cü il oktyabrın 5-də Göyçay şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1977-ci ildən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin VVAQ İdarəsində məsləhətçi, baş məsləhətçi, Qanunların Sistemləşdirilməsi və Qanun Layihələrinin Hazırlanması İdarəsində baş məsləhətçi, rəis müavini işləmişdir. 1988-ci ildən respublika prokurorunun köməkçisi, Nazirlər Soveti Hüquq şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1990–1992-ci illərdə Azərbaycan Respublikası Prezidenti Aparatının Dövlət-hüquq şöbəsinin müdiri, hüquq siyasəti üzrə Azərbaycan Respublikasının Dövlət müşaviri olmuşdur.

Vətəndaş Birliyi Partiyasının sədridir.

On ikinci çağırış Azərbaycan Respublikası Ali Sovetinin, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvüdür. Azərbaycan-Moldova parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Amerika Birləşmiş Ştatları, Lüksemburq, Polşa, Rusiya, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin və Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

2 övladı var.



**Elman Xudam oğlu**
**NƏSİROV**

*89 saylı Göyçay-Ağdaş seçki dairəsi*

1968-ci il mayın 23-də Cəlilabad rayonunun Təzəkənd kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdir. Siyasi elmlər doktorudur. «Qızıl qələm» mükafatı laureatıdır. Rus və ingilis dillərini bilir.

Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Tarix və siyasi elmlər üzrə ekspert şurasının üzvüdür.

1995–2003-cü illərdə Bakı Dövlət Universitetinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasında baş laborant işləmiş, 2001–2008-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında baş müəllim, dosent, elmi kitabxananın müdiri, elmi katib, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin Xarici siyasət məsələlərinin təhlili şöbəsində baş elmi işçi vəzifələrində çalışmışdır. 2008-ci ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Geostrateji Araşdırmalar Mərkəzi müdirinin müavini, Siyasi Araşdırmalar İnstitutunun direktoru, Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının professorudur.

Yeni Azərbaycan Partiyasının Beynəlxalq əlaqələr komissiyasının katibidir.

Milli Məclisin İnsan hüquqları komitəsinin, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Belarus, Çin, İndoneziya, Latviya, Makedoniya, Özbəkistan, Türkiyə, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa İttifaqı–Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvüdür.

Evlidir, 3 övladı var.

**Cavid Həmid oğlu**
**OSMANOV**



*90 saylı Ağdaş*
*seçki dairəsi*

1980-ci il fevralın 6-da Ağdaş şəhərində anadan olmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının İnzibati idarəetmə fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

2001–2002-ci illərdə Ağdaş Rayon Gənclər, Turizm və İdman İdarəsinin baş inspektoru, 2002–2005-ci illərdə rəisi, 2005-ci ildən Ağdaş Rayon İcra Hakimiyyəti başçısının Ağdaş şəhəri üzrə nümayəndəsi vəzifələrində çalışmış, 2006–2016-cı illərdə Ağdaş Rayon İcra Hakimiyyəti başçısının birinci müavini olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Regional məsələlər komitəsinin üzvüdür. Avstraliya və Yeni Zelandiya, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Gürcüstan, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



**Vüsal Afqan oğlu**
**HÜSEYNOV**

*91 saylı Ucar*
*seçki dairəsi*

1980-ci il yanvarın 12-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və Beynəlxalq iqtisadi münasibətlər fakültələrini, Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Harvard Universitetində (ABŞ) dövlət idarəetməsi üzrə magistr təhsili almışdır. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Prezidenti yanında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Müşahidə Şurasının üzvüdür.

2005–2008-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində və digər ali təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 2006–2010-cu illərdə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiyasının Katibliyində aparıcı məsləhətçi, böyük məsləhətçi işləmiş, 2011–2015-ci illərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin məsləhətçisi, böyük məsləhətçisi, 2012–2015-ci illərdə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiyasının katibi vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvüdür. Almaniya Federativ Respublikası, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Çexiya, Gürcüstan, İspaniya, İtaliya, Makedoniya, Türkmənistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.

**Jalə Fazil qızı**
**ƏLİYEVA**



*92 saylı Zərdab-Ucar*
*seçki dairəsi*

1966-cı il oktyabrın 5-də Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, daha sonra həmin universitetin Hüquq fakültəsində ikinci ali təhsil almışdır. Filologiya elmləri doktoru, professordur. Türk dili və ədəbiyyatı üzrə mütəxəssisdir. 4 monoqrafiyanın, 2 dərs vəsaitinin və 70-dən çox elmi məqalənin müəllifidir. Rus, ingilis və ərəb dillərini bilir.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Dissertasiya Şurasının və Azərbaycan Ədəbiyyatı Milli Muzeyinin Elmi Şurasının üzvüdür.

1988–1992-ci illərdə Azərbaycan Mədəniyyət Fondunda müfəttiş vəzifəsində işləmişdir. 1992–2005-ci illərdə Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyində tərcüməçi vəzifəsində çalışmışdır. 1988-ci ildən Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsinin müəllimi, 2007-ci ildən isə həmin fakültənin professorudur.

Bitərəfdir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2008–2013-cü illərdə Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Təhsil, səhiyyə və mədəniyyət komitəsinin sədr müavini, sədri vəzifələrində çalışmışdır.

Milli Məclisin Mədəniyyət komitəsi sədrinin müavini, Əmək və sosial siyasət komitəsinin üzvüdür. Azərbaycan-İsveç parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Hindistan, İrlandiya, İtaliya, Misir, Portuqaliya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisində Azərbaycan nümayəndə heyətinin üzvüdür.

1 övladı var.



**Gövhər Baxşəli qızı**
**BAXŞƏLİYEVA**

*93 saylı Bərdə şəhər*
*seçki dairəsi*

1954-cü il noyabrın 26-da Bərdə şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Filologiya elmləri doktoru, professordur. AMEA-nın müxbir üzvü, Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvüdür. «Qızıl qələm» mükafatı laureatıdır. 5 monoqrafiyanın, 12 kitabın və 200-dək elmi və elmi-publisistik məqalənin müəllifidir. Ərəb, rus, ingilis və fars dillərini bilir.

1977-ci ildən Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda baş laborant, kiçik elmi işçi, elmi işçi, baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. 1997-ci ildən Azərbaycan MEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktorudur.

Bitərəfdir.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuş, 2001-ci il iyunun 12-dən 2005-ci il dekabrın 2-dək parlament Sədrinin müavini vəzifəsində çalışmışdır.

Milli Məclisin Elm və təhsil komitəsinin, Mədəniyyət komitəsinin üzvüdür. Azərbaycan-Misir parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Birləşmiş Ərəb Əmirlikləri, İspaniya, İsveçrə, İtaliya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin rəhbəridir.

1 övladı var.

## Zahid Məhərrəm oğlu ORUC



*94 saylı Bərdə kənd seçki dairəsi*

1972-ci il fevralın 1-də Gədəbəy rayonunun Əli İsmayıl kəndində anadan olmuşdur. Azərbaycan Texniki Universitetinin Avtomatika və hesablama texnikası fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1996–2000-ci illərdə Azərbaycan EA-nın Fotoelektronika İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır.

Bitərəfdir.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Hesablayıcı komissiyasının üzvüdür. Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belçika, Danimarka, Gürcüstan, Özbəkistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Sahib Eyvaz oğlu**
**ALIYEV**

*95 saylı Tərtər seçki dairəsi*

1964-cü il yanvarın 2-də Ermənistan Respublikası Basarkeçər rayonunun Aşağı Şorca kəndində anadan olmuşdur. Moskva Dövlət Universitetinin Jurnalistika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Əməkdar jurnalistdir. Rus və alman dillərini bilir.

1991-ci ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Moskvada xüsusi müxbiri, şərhçisi, 1992–1994-cü illərdə baş redaktor müavini, 1995–1998-ci illərdə «Panorama», «Avrasiya» qəzetlərinin baş redaktoru, 1998-ci ildən ANS televiziya şirkətinin redaktoru, 2001-ci ildən «Mərkəz» qəzetinin baş redaktoru, 2003-cü ildən «Lider» televiziyasının redaktoru və siyasi icmalçısı olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında sektor müdiri, 2007–2010-cu illərdə «Lider» televiziyasında «Səda» informasiya redaksiyasının redaktoru, siyasi icmalçı, analitik qrupun rəhbəri vəzifələrində çalışmışdır.

Bitərəfdir.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Azərbaycan-Peru parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Almaniya Federativ Respublikası, Avstraliya və Yeni Zelandiya, Belarus, Braziliya, Kanada, Malta, Niderland, Özbəkistan, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.

**Mahir Məhəmmədəli oğlu**
**ASLANOV**



*96 saylı Goranboy-Naftalan seçki dairəsi*

1949-cu il noyabrın 22-də Naftalan şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun Mexanika fakültəsini bitirmişdir. Rus dilini bilir.

1971-ci ildən Xabarovsk Vilayətinin Teploozyorski sement zavodunda mexanik işləmişdir. 1973–1978-ci illərdə «Aztransqaz» İstehsalat Birliyində mühəndis, böyük mühəndis, Avtomobil təsərrüfatının müdiri, 1978–1992-ci illərdə Azərbaycan Avtomobil Nəqliyyatı Nazirliyində təhlükəsizlik texnikası üzrə mühəndis, böyük mühəndis, Şəhərlərarası sərnişindaşıma avtobus parkında baş mühəndis, Şəhərlərarası sərnişindaşıma avtokombinatında aparıcı mühəndis, baş mühəndisin müavini, baş mühəndis işləmişdir. 1992-ci ildən «Azəravtonəqliyyat» Dövlət Konserninin aparıcı mühəndisi, 1993-cü ildən «Azazmoimport» firmasının direktoru vəzifələrində çalışmışdır. 1995-ci ildən «Kəpəz» firmasının direktorudur.

Bitərəfdir.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Aqrar siyasət komitəsinin üzvüdür. Azərbaycan-Malayziya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belçika, Bolqarıstan, Əfqanıstan, Finlandiya, Gürcüstan, Monteneqro, Özbəkistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 3 övladı var.



**Ağalar İsrəfil oğlu VƏLİYEV**

*97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsi*

1957-ci il iyulun 23-də Yevlax şəhərində anadan olmuşdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun Sənaye və mülki tikinti fakültəsini bitirmişdir. Əməkdar mühəndisdir. Rus dilini bilir.

1976-cı ildən Yevlax dəmir-beton məmulatı zavodunda fəhlə, texnik-laborant, mühəndis, şöbə rəisi, baş mühəndis, direktor vəzifələrində çalışmışdır. 1991-ci ildən «Azəravtoyol» İstehsalat Birliyi Yevlax Körpütikinti Kombinatının baş direktoru, 1993-cü ildən Yevlax 2 saylı «Yoltəmirtikinti» trestinin rəisi, 1996-cı ildən «Azəraqrartikinti» Dövlət Şirkətinin prezidenti, 1998-ci ildən «Azəraqrartikinti» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri olmuşdur. 2015-ci ildən «Azəraqrartikinti» Açıq Səhmdar Cəmiyyəti Müşahidə Şurasının sədridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavinidir. Azərbaycan-Sloveniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Avstraliya və Yeni Zelandiya, Avstriya, Belarus, Çin, Özbəkistan, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Türkdilli Ölkələrin Parlament Assambleyasında və Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin üzvüdür.

Evlidir, 1 övladı var.



**Sahibə Əli qızı**
**QAFAROVA**

*98 saylı Şəmkir şəhər seçki dairəsi*

1955-ci il martın 19-da Şəmkir şəhərində anadan olmuşdur. Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun Rus dili və ədəbiyyatı fakültəsini və Azərbaycan Dillər Universitetinin İngilis filologiyası fakültəsini fərqlənmə diplomları ilə bitirmişdir. Filologiya elmləri doktoru, professordur. Bir neçə monoqrafiyanın, dərsliyin, dərs vəsaitinin və 80-dən çox elmi məqalənin müəllifidir. İngilis və rus dillərini bilir.

1978-ci ildən Şəmkir şəhərində orta məktəblərdə müəllim işləmişdir. 1981-ci ildən Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun laborantı, müəllimi, baş müəllimi, dosenti, professoru, Qərb Universitetinin Qərb dilləri fakültəsinin dekanı, Bakı Slavyan Universitetinin Avropa dilləri kafedrasının müdiri vəzifələrində çalışmışdır. 2004-cü ildən həmin universitetin beynəlxalq əlaqələr üzrə prorektorudur. 2006–2007-ci illərdə ABŞ Dövlət Departamentinin Fulbright Scholarship proqramı çərçivəsində Miçiqan Universitetinin Qadınlar və Gender Araşdırmaları İnstitutunda çalışmış, ABŞ-ın Miçiqan, Prinston, Tennessi universitetlərində mühazirələr oxumuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Amerika Birləşmiş Ştatları, Birləşmiş Ərəb Əmirlikləri, Çexiya, Fransa, Kolumbiya, Rusiya, Sloveniya, Türkiyə, Uruqvay  parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür. AŞPA-nın Miqrantlar, qaçqınlar və məcburi köçkünlər komitəsinin sədri, Qadınlara qarşı zorakılıq üzrə baş məruzəçisidir. «Zorakılıqdan azad qadınlar» şəbəkəsinin siyasi koordinatorudur.

Evlidir, 2 övladı var.



**Sona Sakit qızı**
**ƏLİYEVA**

*99 saylı Şəmkir kənd seçki dairəsi*

1980-ci il avqustun 4-də Şəmkir şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya fakültəsini bitirmişdir. Əməkdar müəllimdir. Rus dilini bilir.

2000-ci ildən Şəmkir şəhərində orta məktəb müəllimi, 2012-ci ildən Şəmkir rayon Təhsil İdarəsində metodist işləmişdir. 2013–2015-ci illərdə Şəmkir Şəhər İcra Hakimiyyəti başçısının müavini, İcra Hakimiyyətinin İctimai, siyasi və humanitar məsələlər şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin İnsan hüquqları komitəsinin, Elm və təhsil komitəsinin üzvüdür. Argentina, Cənubi Afrika Respublikası, İndoneziya, İordaniya, İrlandiya, Qazaxıstan, Litva, Lüksemburq, Səudiyyə Ərəbistanı, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.

**Kamran Fərhad oğlu**
**BAYRAMOV**



*100 saylı Şəmkir-Daşkəsən seçki dairəsi*

1979-cu il noyabrın 10-da Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1999–2007-ci illərdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə Bərdə bölgə şöbəsinin böyük inspektoru, Beynəlxalq Hüquq Əməkdaşlığı İdarəsinin İnsan hüquqları şöbəsinin aparıcı mütəxəssisi, baş mütəxəssisi, İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini, 2007–2015-ci illərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin məsləhətçisi, aparıcı məsləhətçisi, böyük məsləhətçisi, baş məsləhətçisi, Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin Bələdiyyələrlə iş sektorunun müdiri vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Regional məsələlər komitəsinin üzvüdür. Azərbaycan-Latviya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Argentina, Avstriya, Böyük Britaniya, Xorvatiya, Kuba, Qətər, Litva, Niderland parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

NATO-nun Parlament Assambleyasında və Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətlərinin üzvü, Avropa İttifaqı–Azərbaycan parlament əməkdaşlığı komitəsi həmsədrinin müavinidir.

Evlidir, 3 övladı var.



**Rövşən Şükür oğlu**
**RZAYEV**

*101 saylı Göygöl-Daşkəsən*
*seçki dairəsi*

1962-ci il yanvarın 20-də Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Tarix və Hüquq fakültələrini bitirmişdir. 4 elmi məqalənin müəllifidir. Rus və ingilis dillərini bilir.

1982-ci ildən Bakı şəhərinin Oktyabr Rayon Məhkəməsində tərcüməçi, dəftərxana müdiri işləmişdir. 1986-cı ildən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Kadrlar şöbəsinin müfəttişi, Bakı Məişət Kondisionerləri İstehsalat Birliyi Texniki xidmət şöbəsinin kadrlar üzrə baş müfəttişi, 1990-cı ildən Nərimanov Rayon Məhkəməsinin məhkəmə icraçısı vəzifələrində çalışmışdır. 1994–2004-cü illərdə Bakı şəhər 41 saylı Dövlət notariat kontorunun dövlət notariusu olmuşdur.

Bitərəfdir.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini, Gənclər və idman komitəsinin üzvüdür. Azərbaycan-Almaniya Federativ Respublikası parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Böyük Britaniya, Kanada, Küveyt, Latviya, Norveç, Özbəkistan, Türkiyə, Türkmənistan, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında və Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin, Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının üzvüdür.

Evlidir, 3 övladı var.

**Valeh Feyruz oğlu**
**ƏLƏSGƏROV**



*102 saylı Samux-Şəmkir*
*seçki dairəsi*

2005-ci il dekabrın 2-dən Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavinidir.

1946-cı il oktyabrın 19-da Samux rayonunun Qarayeri qəsəbəsində anadan olmuşdur. Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin) Neft-mədən fakültəsini bitirmişdir.

1970–1991-ci illərdə SSRİ Neft-Qaz Sənayesi Nazirliyinin «Permneft», «Azneft» istehsalat birliklərində, 1992–2005-ci illərdə «Azərneft» Dövlət Konsernində, Azərbaycan Respublikası Dövlət Neft Şirkətində çalışmışdır.

Əməkdar mühəndisdir. «Şöhrət» və 2-ci dərəcəli «Vətənə xidmətə görə» ordenləri ilə təltif edilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin fəxri medalına layiq görülmüşdür.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədridir.

Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəridir.

Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin rəhbəri, Azərbaycan–Rusiya parlamentlərarası komissiyasının həmsədridir.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun Müşahidə Şurasının üzvüdür.

Evlidir, 4 övladı var.



**Sevinc Əmirəhməd qızı**
**HÜSEYNOVA**

*103 saylı Gədəbəy seçki dairəsi*

1970-ci il yanvarın 28-də Gədəbəy rayonunun Slavyanka kəndində anadan olmuşdur. Saratov Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdir. Rus və ingilis dillərini bilir.

1992–1994-cü illərdə Azərbaycan Respublikası Dövlət Torpaq Komitəsinin Gədəbəy rayon Torpaq şöbəsində inspektor, 1994–2006-cı illərdə Gədəbəy Rayon Gənclər və İdman İdarəsinin rəisi, 2006–2009-cu illərdə Gədəbəy Rayon İcra Hakimiyyəti başçısının təhsil, səhiyyə və mədəniyyət məsələləri üzrə müavini-şöbə müdiri işləmişdir. 2009–2010-cu illərdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyində baş məsləhətçi-kollegiyanın məsul katibi, Regionlar ilə iş və kadrlar şöbəsinin aparıcı məsləhətçisi vəzifələrində çalışmışdır.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin, Gənclər və idman komitəsinin üzvüdür. Almaniya Federativ Respublikası, Kanada, Qazaxıstan, Mavritaniya, Misir, Rusiya, Yaponiya, Yunanıstan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Türkdilli Ölkələrin Parlament Assambleyasında və Avronest Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətlərinin üzvüdür.

Evlidir.

**Rafiq Musa oğlu**
**MƏMMƏDHƏSƏNOV**



*104 saylı Gədəbəy-Tovuz seçki dairəsi*

1945-ci il sentyabrın 26-da Gədəbəy şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirmişdir. Tibb elmləri doktoru, professordur. Əməkdar elm xadimidir. «Tərəqqi» medalı ilə təltif edilmişdir. Avropa Diabet və Ümumdünya Diabet assosiasiyalarının üzvüdür. 250-dən çox elmi əsərin və 2 dərsliyin müəllifidir. 1 ixtirası vardır. İngilis və rus dillərini bilir.

1969-cu ildən Naftalan sanatoriyasında, 1971-ci ildən Mərdəkan sanatoriyasında həkim-terapevt işləmişdir. 1977–1986-cı illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda assistent, 1990-cı ildən Daxili xəstəliklər kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1993-cü ildən Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş endokrinoloqudur.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin, Səhiyyə komitəsinin üzvüdür. Avstriya, Çexiya, Çili, Qırğızıstan, Rusiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Evlidir, 2 övladı var.



## Qənirə Ələsgər qızı PAŞAYEVA

*105 saylı Tovuz seçki dairəsi*

1975-ci il martın 24-də Tovuz rayonunun Düz Qırıqlı kəndində anadan olmuşdur. Azərbaycan Tibb Universitetinin Pediatriya fakültəsini və Bakı Dövlət Universitetinin Beynəlxalq hüquq fakültəsini bitirmişdir. Siyasi elmlər doktoru, dosentdir. Gürcüstanın «Şərəf» ordeni ilə təltif edilmişdir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 10-dan artıq elmi, publisistik kitabın, romanın, yüzlərcə məqalənin müəllifidir. 20-yə yaxın sənədli filmin ssenari müəllifi və baş məsləhətçisi olmuşdur. Türkiyənin Giresun, Bolu və Karabük vilayətlərinin fəxri vətəndaşıdır. Rus və ingilis dillərini bilir.

Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür. Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İctimai Birliyinin sədridir.

1998-ci ildən ANS televiziya şirkətinin Xəbərlər xidmətində reportyor, müxbir, redaktor, aparıcı redaktor, baş aparıcı redaktor, baş redaktorun müavini, Xəbərlər redaksiyası baş redaktorunun müavini vəzifələrində çalışmışdır. 2005–2012-ci illərdə Heydər Əliyev Fondunun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri olmuş, 2012–2015-ci illərdə «Odlar Yurdu» Universitetinin Siyasi elmlər kafedrasına rəhbərlik etmişdir.

Bitərəfdir.

Üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Səhiyyə komitəsinin, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Avstraliya və Yeni Zelandiya, Bosniya və Herseqovina, Gürcüstan, İraq, İspaniya, İtaliya, Koreya, Qazaxıstan, Malayziya, Mərakeş, Misir, Pakistan, Rumıniya, Tailand, Türkiyə, Yaponiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Subaydır.

## Ülviyyə Cavanşir qızı AĞAYEVA



*106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi*

1978-ci il sentyabrın 18-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dillər Universitetinin Filologiya fakültəsini bitirmişdir. Filologiya üzrə fəlsəfə doktorudur. 10 monoqrafiyanın və broşürün, 100-dən çox elmi-publisistik məqalənin müəllifidir. Ümumdünya Sülh Federasiyası tərəfindən Sülh səfiri adına layiq görülmüşdür. Rus və ingilis dillərini bilir.

1999–2000-ci illərdə Azercell Telekom Birgə Müəssisəsinin mütəxəssisi, 2005–2008-ci illərdə Azərbaycan Kooperasiya Universitetinin müəllimi olmuş, 2008–2015-ci illərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsində müxtəlif məsul vəzifələrdə çalışmışdır. 2015-ci ildən AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisidir.

Bitərəfdir.

Milli Məclisin Elm və təhsil komitəsinin, Mədəniyyət komitəsinin üzvüdür. Avstriya, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çexiya, İspaniya, İsveçrə, İtaliya, Qazaxıstan, Latviya, Mərakeş, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü, Avropa İttifaqı–Azərbaycan parlament əməkdaşlığı komitəsi həmsədrinin müavinidir.

Evlidir, 2 övladı var.



**Kamran Telman oğlu**
**NƏBİZADƏ**

*107 saylı Qazax seçki dairəsi*

1971-ci il fevralın 5-də Bakı şəhərində anadan olmuşdur. Moskva Dövlət Universitetinin İqtisadiyyat fakültəsini və Ümumrusiya Xarici Ticarət Akademiyasını bitirmişdir. İngilis dilini bilir.

1992–1993-cü illərdə Azərbaycan Milli İstiqlal Partiyası Mərkəzi Aparatının İqtisadiyyat şöbəsində referent, «Bəhrə» elm-istehsalat ticarət firmasında baş iqtisadçı işləmiş, 1993–1997-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti Xarici İqtisadi Əlaqələr İdarəsinin mühəndisi, aparıcı mütəxəssisi, şöbə müdirinin müavini, 1997–2004-cü illərdə «Lukoil Marine İnternational LTD» şirkətinin vitse-prezidenti, Azərbaycan baş nümayəndəliyinin müdiri, 2004–2006-cı illərdə «NVF-Consulting Co İnc» şirkəti direktorunun müavini, 2006-cı ildə Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin İqtisadiyyat şöbəsinin baş məsləhətçisi, Dövlət və beynəlxalq proqramların icrasına nəzarət şöbəsi müdirinin müavini vəzifələrində çalışmış, 2006–2007-ci illərdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətində idarə rəisinin müavini, 2007–2015-ci illərdə «NKH» MMC-nin Direktorlar Şurasının sədri olmuşdur.

Bitərəfdir.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi sədrinin müavini, Gənclər və idman komitəsinin, İntizam komissiyasının üzvüdür. Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Avstraliya və Yeni Zelandiya, Avstriya, Böyük Britaniya, Çexiya, Gürcüstan, İsveçrə, Latviya, Mərakeş, Rusiya, Tacikistan, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

ATƏT-in Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.

**Nizami Qulu oğlu**
**CƏFƏROV**



*108 saylı Ağstafa seçki dairəsi*

1959-cu il sentyabrın 21-də Ağstafa rayonunun Zəlimxan kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişdir. Filologiya elmləri doktoru, professordur. Əməkdar elm xadimidir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Dünya Alpaqut Federasiyasının prezidentidir. 50-dən çox kitabın müəllifidir. Rus, ingilis və fars dillərini bilir.

1985–1987-ci illərdə Azərbaycan EA-nın Nəsimi adına Dilçilik İnstitutunun elmi işçisi olmuşdur. 1987-ci ildən «Ədəbiyyat və incəsənət» qəzetinin şöbə müdiri, 1991-ci ildən Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının müəllimi, professoru, 1994-cü ildən Filologiya fakültəsinin dekanı vəzifələrində çalışmışdır. 2000-ci ildən Bakı Dövlət Universitetinin kafedra müdiri, Azərbaycanda Atatürk Mərkəzinin müdiridir.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2005-ci il dekabrın 2-dən 2015-ci il noyabrın 24-dək Milli Məclisin Mədəniyyət komitəsinə rəhbərlik etmişdir.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin, Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Azərbaycan-Bəhreyn parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Küveyt, Qazaxıstan, Qırğızıstan, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Türkdilli Ölkələrin Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Nəsib Məhəmməd oğlu**
**MƏHƏMMƏLİYEV**

*109 saylı Balakən seçki dairəsi*

1961-ci il fevralın 11-də Balakən rayonunun Qazma kəndində anadan olmuşdur. Kuybışev Dəmir Yolu Nəqliyyatı Mühəndisləri İnstitutunun Dəmir yolu nəqliyyatında daşıma proseslərinin idarə edilməsi fakültəsini və Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Fəxri dəmiryolçudur. Rus və ingilis dillərini bilir.

1982-ci ildən Rusiya Federasiyasının Saransk, Kuybışev şəhərlərində tikinti idarələrinin dülgəri, tikinti ustası, quraşdırma üzrə mühəndisi, kooperativ sədri işləmiş, 1989-cu ildən Azərbaycan Dəmir Yolu Balakən stansiyasının növbətçisi, 1991-ci ildən Balakən stansiyasının rəisi vəzifələrində çalışmış, 2000–2006-cı illərdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı, 2006–2015-ci illərdə Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı olmuşdur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Amerika Birləşmiş Ştatları, Avstraliya və Yeni Zelandiya, Belarus, Qətər, Norveç, Rusiya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

GUAM-ın Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.

**Elşən Məmmədhənifə oğlu**
**MUSAYEV**



*110 saylı Zaqatala seçki dairəsi*

1979-cu il avqustun 11-də Oğuz rayonunda anadan olmuşdur. Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirmişdir. Rus, ingilis və alman dillərini bilir.

2001–2003-cü illərdə Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikası Məhkəməsində məhkəmə nəzarətçisi işləmiş, 2009–2010-cu illərdə Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu məsələləri komissiyasının, 2010–2015-ci illərdə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin eksperti vəzifəsində çalışmışdır.

Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədridir.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvüdür. Belarus, Braziliya, Cənubi Afrika Respublikası, Çexiya, İtaliya, Qətər, Malayziya, Türkiyə, Türkmənistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 1 övladı var.



**Kamilə Əli Ağa qızı**
**ƏLİYEVA**

*111 saylı Zaqatala-Balakən seçki dairəsi*

1967-ci il iyunun 8-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Biologiya elmləri doktoru, professordur. 1 monoqrafiyanın, 2 dərsliyin, 2 dərs vəsaitinin, 90-dan çox elmi məqalənin müəllifidir. Rus, ərəb, fransız və ingilis dillərini bilir.

1989-cu ildən Azərbaycan Dövlət Universitetinin Bitki fiziologiyası kafedrasının baş laborantı, Genetika və təkamül təlimi kafedrasının laborantı, baş laborantı, müəllimi, baş müəllimi, dosenti vəzifələrində çalışmışdır. 2007-ci ildən Bakı Dövlət Universitetinin Genetika və təkamül təlimi kafedrasının professorudur.

Yeni Azərbaycan Partiyasının üzvüdür.

Dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Səhiyyə komitəsinin, Elm və təhsil komitəsinin üzvüdür. Birləşmiş Ərəb Əmirlikləri, Çexiya, Gürcüstan, İsveç, Litva, Türkiyə, Yaponiya parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

MDB-nin Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin və Avropa İttifaqı–Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvüdür.

Evlidir, 2 övladı var.

**Azər Şəmşid oğlu**
**KƏRİMLİ**



*112 saylı Qax*
*seçki dairəsi*

1964-cü il iyulun 6-da Bakı şəhərində anadan olmuşdur. Moskva Yüngül Sənaye Texnologiya İnstitutunun Dəri məmulatının texnologiyası fakültəsini bitirmişdir. Rus, ingilis və italyan dillərini bilir.

1989-cu ildə Bakı model ayaqqabılar fabrikində dispetçer işləmiş, 1992–1999-cu illərdə Moskva vilayətində «Fəxri» məhdud məsuliyyətli müəssisəsinin direktoru, 1999–2000-ci illərdə «Qamma», «Lotos» şirkətlərinin prezidenti vəzifəsində çalışmışdır.

Bitərəfdir.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Avstriya, Belçika, Estoniya, İspaniya, Peru, Portuqaliya, Ukrayna parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

GUAM-ın Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Avropa İttifaqı–Azərbaycan parlament əməkdaşlığı komitəsinin üzvüdür.

Evlidir, 2 övladı var.



**Yaqub Mikayıl oğlu MAHMUDOV**

*113 saylı Şəki şəhər seçki dairəsi*

1939-cu il fevralın 10-da Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdir. Tarix elmləri doktoru, professordur. Əməkdar elm xadimidir. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür. Lütfizadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvüdür. Qafqaz Müsəlmanları İdarəsi elmi-dini şurasının üzvüdür. «Şöhrət» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. Dövlət mükafatı laureatıdır. Azərbaycan Respublikası Milli Məclisinin fəxri medalına layiq görülmüşdür. «Qızıl qələm», «Qızıl qılınc», Abbasqulu ağa Bakıxanov, Yusif Məmmədəliyev, Rəsul Rza, «Humay», «Gənclərin dostu», Samir Əsgərxanov mükafatları laureatıdır. Azərbaycanda və xarici ölkələrdə nəşr edilmiş 1000-dən çox elmi əsərin və elmi-publisistik məqalənin müəllifidir. Adı XXI əsrin ən məşhur elm adamlarının siyahısına daxil edilmişdir. Rus və ingilis dillərini bilir.

Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar dövlət komissiyasının, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvüdür.

1956-cı ildən Balakən rayonunun Sarıbulaq kənd orta məktəbində müəllim işləmişdir. 1966-cı ildən Azərbaycan Sovet Ensiklopediyası redaksiyasında elmi redaktor, böyük elmi redaktor, redaksiya müdiri, baş redaktorun elmi işlər üzrə müavini, 1974-cü ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim, dosent, 1981-ci ildən Azərbaycan Dövlət Universitetində dosent, kafedra müdiri, Tarix fakültəsi dekanının müavini, 1992-ci ildən Azərbaycan Respublikası Ali Attestasiya Komissiyası sədrinin müavini, «Azərbaycan Ensiklopediyası» Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru vəzifələrində çalışmışdır. 1986–2004-cü illərdə Bakı Dövlət Universiteti Tarix fakültəsinin dekanı olmuşdur. 2004-cü ildən AMEA-nın Tarix İnstitutunun direktorudur.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

İkinci, üçüncü və dördüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin, Milli Məclis yanında Toponimiya komissiyasının üzvüdür. Azərbaycan-Xorvatiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, İspaniya, Macarıstan, Özbəkistan parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür.

Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin üzvüdür.

Evlidir, 3 övladı var.

## Əli Əhməd oğlu
## MƏSİMLİ



*114 saylı Şəki kənd birinci seçki dairəsi*

